QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 115 (5346) 4 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# YAP 700 min üzvü ilə yeni qələbələrə doğru!

## *İlham Əliyev: "Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, xalq partiyasıdır"*

Səh 8



4

**Müdafiə Nazirliyi əsgər valideynlərinə müraciət edib**



6

**Cocuq mərcanlıların 24 illik yurd həsrətinə son qoyulur**



16

**Almaniya millisi Konfederasiyalar Kubokunun qalibi oldu!**



# Ölkəmizdə din-dövlət münasibətləri sağlam zəmində formalaşıb

## *İlham Əliyev: "...Bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır"*

***Tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən və irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə - Azərbaycanda firavan həyat sürməsinə əsas verir. Bu məkanda hər kəs milli mənsubiyyətindən və irqindən asılı olmayaraq, azad nəfəs alır və sərbət fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".***





Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmaların olması Azərbaycan kimi sülhsevər bir dövləti narahat etməyə bilməz. Dünyaya multkultural dəyərələrini, tolerant mühitini bəyan edir və özünün xoşməramlı mesajlarını göndərir.

Dövlət-xalq birliyinə əsaslanan müdrik siyasət sayəsində Azərbaycan yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Son illər ölkəmizdə keçirilən Mədəniyyətlərarası Dialoq, Qlobal, Humanitar forumlar, Dünya Dini Liderlərinin Sammiti Bakını dünyanın humanitar mərkəzinə çevrib.

Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bəşəri dəyərlərə olan ali münasbətin daha bir təzahürüdür. "İslam Həmrəyliyi İli" çərçivəsində İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsinin Azərbaycanda bir araya gəlməsi islam dünyasında böyük təntənə kimi qəbul olundu. Ölkəmizə gələn hər bir kəs burada tolerantlıq mühitinə, islami dəyərlərə dövlət tərəfindən böyük önəm verildiyinin bir daha şahidinə çevrildilər. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq və multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir.

### "AZƏRBAYCANDA DÖVLƏT DİNİ MƏSƏLƏLƏRƏ QARIŞMIR, ƏKSİNƏ, ÇALIŞIR Kİ, KÖMƏK GÖSTƏRSİN"

Bəli, bu gün Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrində böyük hörmətlə yanaşan bir ölkədir. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə iqamətgahında təşkil olunan iftar süfrəsində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, islami dəyərlər milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir: "... bizim çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür, yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır". Cənab Prezident Azərbaycanda dövlət-din münasibətlərinin necə qurulduğuna nəzər salarkən, vurğulayıb ki, Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin: "Dövlət xətti ilə təmir edilmiş və tikilmiş tarixi məscidlərimiz, dini abidələrimiz, eyni zamanda, kilsələr, sinaqoqlar artıq bunun bariz sübutudur. Din də dövlət işinə və siyasi işlərə qarışmır. Hesab edirəm ki, bu da nümunəvi bir yanaşmadır. Bununla bərabər dövlət və din bir yerdədir. Çünki bizim amalımız birdir. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, daha da güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və dinamik inkişafımız uzunmüddətli və dayanıqlı olsun. Ona görə də, din-dövlət münasibətlərinin sağlam zəmində formalaşması bizim böyük sərvətimizdir".

Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn xarici qonaqlarda maran doğurur. Qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik Məbədini, İmamzadə Kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayır və Azərbaycan təcrübəsini öyrənməyə çalışırlar.

### "BİZ İŞĞALDAN AZAD EDİLƏCƏK BÜTÜN ƏRAZİLƏRİ QISA MÜDDƏT ƏRZİNDƏ BƏRPA EDƏCƏYİK. O ƏRAZİLƏRƏ DƏ HƏYAT QAYIDACAQ, O ƏRAZİLƏRDƏ DƏ AZƏRBAYCAN BAYRAĞI QALDIRILACAQ"

Azərbaycanın bugünkü iqtisadi gücünün, inkişafının, milli ordusunun olması onun öz torpaqlarını işğaldan azad etməyə qadir olduğunu göstərir. Ötən ilin aprel döyüşləri bunun əyani sübutudur. Artıq bu gün işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi yaşayış üçün yararlı vəziyyətdədir. Burada tikilmiş 50 ev, məktəb, yol və bütün infrastruktur Azərbaycanın iqtisadi gücünün göstəricisi deyilmi? Ölkə başçısı, çıxışında vurğuladığı kimi, biz işğaldan azad ediləcək bütün əraziləri qısa müddət ərzində bərpa edəcəyik: "O ərazilərə də həyat qayıdacaq, o ərazilərdə də Azərbaycan bayrağı qaldırılacaq. Necə ki, bu gün Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğaldan azad edilmiş torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, quruculuq işləri aparılır".

İftar mərasimində Cocuq Mərcanlının erməni faşizminin canlı şahidi olduğunu bildirən Cənab Prezident bu kəndin cəmi 3-4 ay ərzində işğal altında olduğunu və orada bir dənə də salamat bina qalmadığını bildirib. Ölkəmin iqtisadi gücünün nəticəsidir ki, Cocuq Mərcanlı kəndi iki ay ərzində bərpa olundu. Bu məkanda yüz evin tikilməsi yaxın zamanlar üçün nəzərdə tutulub. Hətta burada Şuşa memarlığı üslubunda nəfis, əzəmətli məscid inşa olunub. Dövlət başçısı Bakıda erməni kilsəsini bərpa etdiyimiz halda, ermənilərin işğal edilmiş torpaqlarda bizim məscidlər

imizi dağıtdıqların bildirib:"Amma düşmən bilməlidir ki, dağılmış məscidlər bizim qəlbimizdə yaşayır. ...Mən əminəm ki, biz işğal edilmiş bütün torpaqlara qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və o torpaqlarda da belə gözəl iftar süfrələri açılacaq, İnşallah".

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycandan əxz ediləcəyi çox məqamlar var. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan dövləti qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşır

## *Mehriban xanım Əliyeva: "Bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir"*

***Son 13 ildə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilib, yaradılan təkmil Azərbaycan modeli dünyanın əksər ölkələri üçün nümunədir. Ölkənin əsas sərvəti olan Azərbaycan xalqının inkişafına hesablanmış siyasətdən qaçqın və məcburi köçkünlər də faydalanırlar. Məhz ölkə əhalisinin ən həssas hissəsi olan qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə Ulu Öndər Heydər Əliyevin yanaşmasının davamı olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə həyata keçirilən hərtərəfli dövlət siyasəti, müvafiq dövlət proqramlarının qəbulu və onların icrası nəticəsində 6,2 milyard manatdan çox vəsait sərf olunub. Ondan 2,8 milyard manatı dövlət büdcəsinin, 2 milyard manatı Dövlət Neft Fondunun, 1,4 milyard manatı isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir.***







Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımızın yeni evlər və mənzillərlə təmin olunması istiqamətində son illər əhəmiyyətli tədbirlər görülür. 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində, qaçqın və məcburi köçkünlər üçün indiyədək 2,9 milyon kvadratmetr yaşayış sahəsi olan 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. 50 min ailə və ya 250 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına 2,3 milyard manat vəsait sərf olunub. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün son 23 ildə 6,1 milyard manat vəsait xərclənib. Son 13 ildə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin məbləği isə 4,5 dəfə artırılıb. Son 13 ildə 2 min nəfərdən çox məcburi köçkün sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 40 milyon manat güzəştli kredit verilib. Məcburi köçkünlər arasında yoxsulluq həddi son 13 ildə 75 faizdən 12 faizə düşüb.

Qeyd edək ki, bu kateqoriyadan olan soydaşlarımız üçün yaradılan mənzil şəraiti yüksək səviyyətə təchiz olunur. Bunu qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində iyunun 27-də Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində də müşahidə etdik. Xəzər rayonunun Şüvəlan qəsəbəsində yararsız binada və Xətai rayonunda yarımçıq tikilmiş binada məskunlaşmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülüb. Birinci vitse-prezident Mehriban Əliyeva çıxışı zamanı bildirib ki, Ermənistanın artıq 20 ildən çoxdur davam edən işğalçı siyasəti nəticəsində, ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün mövcuddur: "Bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. İyirmi ildən çoxdur ki, bu sahədə ardıcıl olaraq, bütün lazımi tədbirlər həyata keçirilir, addımlar atılır. Bildiyiniz kimi, - baxmayaraq ki, müstəqilliyimizin ilk illərində dövlətimiz böyük çətinliklərlə üzləşmişdir, - Azərbaycan hökuməti ölkəmizdə mövcud olan bütün çadır şəhərciklərini qısa bir zamanda ləğv etdirmişdir. Azərbaycanda məcburi köçkün ailələri üçün 100-dək müasir yaşayış kompleksi inşa olunmuşdur. Bu qəsəbələrdə bütün lazımi infrastruktur yaradılmışdır. Qəsəbələr məktəb və bağçalarla təmin olunmuşdur. Dörd yüz mindən çox məcburi köçkün iş yeri ilə təmin edilmişdir. Bu gün də soydaşlarımızın işlə təmin olunması sahəsində dövlət proqramları həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, bu, Azərbaycan dövləti üçün ən ağır, ən vacib problemdir. Azərbaycan dövləti bu problemin həlli üçün bütün lazımi tədbirləri görür və bu siyasət bundan sonra da davam etdiriləcəkdir".

Onu da bildirək ki, bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməli qoyulub. Bu qəsəbədə bütün lazımi infrastruktur - tibb məntəqəsi, 600 şagird yerlik məktəb, uşaq bağçası inşa olunur. Qısa bir zamanda başa çatdırılacaq yeni yaşayış qəsəbəsində çox ağır vəziyyətdə yaşayan daha 1026 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq".

Göründüyü kimi, bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış vəsait nisbət etibarilə dünyanın ən yuxarı göstəriciləri arasındadır. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur.

Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusən də, böyük çətinliklərlə üzləşən qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşır, öz qayğısını göstərir.

***"Səs" Analitik Qrupu***

# Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 min nəfəri ötdü

Məlum olduğu kimi bu il Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü tamam olur. Bu il partiyamız üçün digər mühüm bir əlamətdar hadisə isə ondan ibarətdir ki, YAP üzvlərinin sayı artıq 700 min nəfəri ötüb. 25 illik fəaliyyəti dövründə partiyamız Ümummilli liderimiz Heydər Əliyevin yolu ilə irəliləyərək, çox böyük və şərəfli yol keçib. Cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu yolu əzmkarlıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ləyaqətlə xalqa xidmət göstərir.

Ümumiyyətlə, partiyamız yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək, müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib.

YAP-ın məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. YAP öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır. Bir sözlə, Ulu öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

Xüsusilə vurğulamalıyıq ki, Yeni Azərbaycan Partiyası siyasi sistemin lokomotivi və güc mərkəzidir. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu siyasi partiyasıdır. YAP, eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır.

Bu gün YAP-ın sıralarında 700 min insanın birləşməsinin ciddi əsasları var. Bu o deməkdir ki, xalqımız Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirir və Prezident İlham Əliyevin siyasətini birmənalı olaraq dəstəkləyir. Ümumiyyətlə, statistikaya nəzər salsaq deyə bilərik ki, partiyamızın sıraları kəmiyyət və keyfiyyət baxımından yüksələn xətlə inkişaf edir. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi.

Yeni Azərbaycan Partiyası 2008-ci ilin avqustun 2-də özünün IV Qurultayında kəmiyyət və keyfiyyət baxımından daha da güclü siyasi qüvvə kimi çıxış etdi. Belə ki, bu qrultay ərəfəsində artıq partiya üzvlərinin sayı 450 min nəfərə yüksəlmişdi. Daha sonra qısa müddət ərzində YAP üzvlərinin sayı 500 min və 600 min nəfərə qədər yüksəldi.

Bu gün isə partiyamızın üzvlərinin 700 min nəfəri ötməsi bir daha Yeni Azərbaycan Partiyasının gücünün və qüdrətinin parlaq ifadəsidir. Beləliklə, 25 il ildir fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atır. Məhz bunun nəticəsidir ki, YAP bütövlükdə Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsidir.

## "Qazprom" və SOCAR əməkdaşlıq məsələlərini müzakirə ediblər



"Qazprom" və SOCAR əməkdaşlıq məsələlərini müzakirə ediblər. Müzakirələr "Qazprom" PSC-nin idarə heyətinin sədri Aleksey Miller və SOCAR-ın prezidenti Rövnəq Abdullayev arasında Sankt-Peterburqda keçirilən işçi görüşündə baş tutub. Görüş iştirakçıları əməkdaşlıq məsələlərini müzakirə ediblər. AZƏRTAC "Qazprom" PSC-nin saytına istinadla xəbər verir ki, söhbət, o cümlədən Azərbaycana təbii qazın tədarükündən gedib.

## Bakı Nəqliyyat Agentliyi piyada keçidləri ilə bağlı yeniliklərin icrasına başlayıb

Bakı Nəqliyyat Agentliyi (BNA) piyada keçidləri ilə bağlı yeniliklərin icrasına başlayıb. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin ictimaiyyətlə əlaqələr və maarifləndirmə şöbəsinin müdiri Mais Ağayev deyib. M.Ağayev qeyd edib ki, piyada keçidlərində piyadaların yolun hərəkət hissəsində diqqətli olmaları üçün yerə xəbərdaredici məlumatlar yazılır. İlk olaraq "Sovetski" layihəsi çərçivəsində salınan yollarda tətbiq edilən bu yeniliyi gələcəkdə bütün Bakı yollarında görmək mümkün olacaq.




# YAP nümayəndə heyəti Moldovada Prezident və hakim Sosialistlər Partiyasının rəhbərliyi ilə görüşüb

Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti 30 iyun - 2 iyul tarixlərində Moldovada səfərdə olub. YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva və YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva Moldova Respublikası Sosialistlər Partiyasının 20 illik yubiley mərasimində iştirak ediblər. Mərasim zamanı YAP nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva partiyanın adından təbrik nitqi söyləyib. Səfər çərçivəsində YAP nümayəndə heyəti Moldova Respublikasının Prezidenti İqor Dodon və Moldova Respublikası Sosialistlər Partiyasının sədri Zinaida Qreçanaya ilə görüşüb. Görüşlər zamanı ölkələrimiz və partiyalar arasında əlaqələrin mövcud durumu və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.






## Müdafiə Nazirliyi əsgər valideynlərinə müraciət edib



Müdafiə Nazirliyi əsgər valideynlərinə müraciət edib. Nazirliyin mətbuat xidmətindən SİA-ya bildiriblər ki, müraciətdə hərbi qulluqçuların təhlükəsizliyi naminə telefon əlaqəsi və sosial şəbəkələrdən istifadə zamanı hərbi xidmət barədə müzakirələr aparmamaq, hərbi hissə, onların yerləşmə yerləri, silah-sursatı, hərbi texnikası haqqında və hərbi qulluqçulara dair fotoşəkilləri paylaşmamaq tövsiyə olunur.

## "Əli və Nino" filmi ABŞ Dövlət Departamentində tamaşaçıları heyran edi



Amerikanın Beynəlxalq Diplomatik Xidmət Əməkdaşları (The Associates of the American Foreign Service Worldwide) Assosiasiyasının təşkilatçılığı ilə ABŞ Dövlət Departamentinin əsas zallarından biri olan Corc Marşal Auditoriyasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın layihə rəhbəri və icraçı prodüseri olduğu "Əli və Nino" filmi nümayiş olunub. Tədbirdə Dövlət Departamentinin çoxsaylı əməkdaşları, Vaşinqtonda akkreditə olunmuş səfirlər və ictimai xadimlər iştirak ediblər.

Amerikanın Beynəlxalq Diplomatik Xidmət Əməkdaşları Assosiasiyasının proqram direktoru Şeyla Svitzer çıxış edərək filmin Qurban Səidin "Əli və Nino" romanı əsasında çəkildiyini və iki gənc arasında yaşanan sevgi hekayəsindən, eləcə də, Birinci Dünya müharibəsi dövründə Azərbaycanda, eləcə də, ümumilikdə Qafqaz regionunda baş verən hadisələrdən bəhs etdiyini qeyd edib. Amerikanın Beynəlxalq Diplomatik Xidmət Əməkdaşları Assosiasiyasının Prezidenti Coanna Asanasopoulos Oven çıxış edərək filmin ABŞ Dövlət Departamentində nümayiş olunması üçün göstərdiyi dəstəyə görə Azərbaycanın bu ölkədəki səfirliyinə minnətdarlığını bildirib. O, Oskar mükafatçısı Asif Kapadianın rejissoru olduğu "Əli və Nino" filminin çəkilişində məşhur beynəlxalq kino ulduzlarının, eləcə də, Mendi Petinkinin, Adam Bakrinin, Mariya Valverdenin və Halit Ergençin yer aldığını diqqətə çatdırıb.

Səfir Elin Süleymanov çıxış edərək "Əli və Nino" filminin ABŞ Dövlət Departamentində nümayiş etdirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. O, "Əli və Nino" romanının tarixi əhəmiyyətindən danışaraq azərbaycanlı və gürcü gənclərin birgə və azad yaşamaq üçün mübarizə apardıqlarını, Azərbaycanın müstəqilliyi naminə böyük qurbanlar verdiklərini və bunun da hazırkı gənc nəsillər üçün bir nümunə olduğunu vurğulayıb. E.Süleymanov filmdə də göstərildiyi kimi dövlət müstəqilliyinin həm Azərbaycan, həm də Gürcüstan xalqları üçün qürur mənbəyi olduğunu bildirib, ABŞ tərəfinin bu amilə xüsusi diqqət yetirməsini tövsiyə edib. O, adı çəkilən roman əsasında çəkilmiş "Əli və Nino" filminin regionumuzdakı milli kimliklərin və onlar arasında qarşılıqlı münasibətlərin başa düşülməsi üçün maraqlı təqdimat rolunu oynaya biləcəyini qeyd edib. E.Suleymanov, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti, filmin icraçı prodüseri Leyla Əliyevaya, eləcə də, yaradıcı heyətə minnətdarlığını bildirib. Qeyd edək ki, "Əli və Nino" filmi ABŞ Dövlət Departamentində ilk dəfədir nümayiş etdirilir.

# Əhalinin içməli su ilə təminatı və suvarma məsələləri dövlətin diqqət mərkəzindədir

***Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafında Ulu Öndər Heydər Əliyevin böyük və tarixi xidmətləri var. Qədim suvarma əkinçiliyi ölkəsi olan respublikamızda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində başlanılsa da, bu sahənin əsas inkişafına Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə nail olunub. Həmin illərdə meliorasiya və su təsərrüfatı sahəsində quruculuq işləri geniş vüsət alıb, iri su anbarları, çoxlu sayda hidroqovşaqlar, nasos stansiyaları, müasir meliorasiya və irriqasiya sistemləri tikilib istifadəyə verilib, suvarılan torpaqların ümumi sahəsi 1,5 dəfədən çox artıb. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Ulu Öndər vəzifədən getdikdən sonra kənd təsərrüfatı, xüsusilə də, meliorasiya və su təsərrüfatı tənəzzülə uğramış və məhv olmaq təhlükəsi ilə üzləşmişdi.***



**Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 150 subartezian quyusu qazılacaq**



1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı da öz inkişafının yeni mərhələsinə qədəm qoydu: mövcud meliorasiya potensialının dağıdılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ümummilli Liderin göstərişləri əsasında meliorasiya və su təsərrüfatına iri investisiyalar yatırılmağa başlanıldı. Hazırda Prezident İlham Əliyev tərəfindən göstərilən böyük diqqət və qayğı nəticəsində bu sahəyə ayrılan vəsaitin və yerinə yetirilən işlərin həcmi ildən-ilə artır.

Son illərdə isə Azərbaycan Respublikasında iqtisadiyyatın sürətli inkişafı digər sahələr kimi qeyri-neft sektorunda da köklü dəyişikliklərə səbəb olub. Respublikada pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalında daha böyük artıma nail olunması məqsədi ilə əkin sahələrinin suvarma suyu ilə təminatının daha da yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi üçün mühüm tədbirlər həyata keçirilib, su anbarları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilib.

Belə ki, son illər 2100-dən çox maşın və mexanizmlər alınıb, 3736 kilometr suvarma kanallarının, 2251 kilometr kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi işləri həyata keçirilib, 348 min hektar suvarılan torpaqların su təminatı və 239 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb. Həmçinin, 55 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib, 1804 subartezian quyusu qazılıb, sel və daşqınlara qarşı dağ çaylarında 199 kilometr sahilbərkitmə işləri, Kür-Araz çaylarında isə 900 kilometr uzunluğunda bəndlərin möhkəmləndirilməsi işləri yerinə yetirilib. Aqrar sektorun inkişafında mühüm rol oynayan üç nəhəng infrastruktur layihəsi - Taxtakörpü və Şəmkirçay su anbarlarının SES-lə birlikdə, Tovuzçay Su Anbarının, eləcə də, Baş Mil-Muğan Kollektorunun tikintisi və digər iri layihələr qısa müddətdə başa çatdırılıb.

Qeyd edək ki, əkin sahələrinin ildən-ilə genişləndirilməsi nəticəsində, son illər suvarma suyuna tələbat da xeyli artıb. Son üç ildə respublikada pambıq əkini sahələri 18 min hektardan artırılaraq 136 min hektara çatdırılıb. Azərbaycanda kənd təsərrüfatı məhsullarının 92 faizi suvarılan torpaqlarda yetişdirilir. Hazırda ölkə ərazisində 1 milyon 386 min hektar torpaq sahəsində suvarma işləri həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına 2013-2016-cı illərdə ölkənin 40 şəhər və rayonu üzrə əhalisi 1,3 milyon nəfərə yaxın olan 560 yaşayış məntəqəsində əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi və əhalinin içməli suya tələbatının ödənilməsi üçün 957 subartezian quyusu qazılıb.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini və vətəndaşların müraciətlərini nəzərə alaraq, əhalisi 375 min nəfərə yaxın olan 36 şəhər və rayonun 136 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə, əhalinin içməli suya tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılıb. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev müvafiq Sərəncam da imzalayıb.

Bununla yanaşı, Prezident İlham Əliyevin tapşırığı ilə regionlarda, mütəmadi olaraq, suvarma və əhalinin içməli su ilə təminatına dair tədbirlər də həyata keçirilməkdədir. Məsələn, cəbhə bölgəsində yerləşən Tərtər rayonunda əkin sahələrinin suvarma suyuna tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür, hər il yeni subartezian quyuları qazılır. Belə ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına qazılmış 15 ədəd subartezian quyusu istifadəyə verilib. Son iki ildə Tərtər rayonunda 31 subartezian quyusu qazılaraq istifadəyə verilib. Bu dəfə isə Sarıcalı kəndində 2, Kəngərli, Xoruzlu, Kəbirli, Mamırlı, Köçərli, Azad Qaraqoyunlu, İlxıçılar, Qapanlı, Qaraağacı, Əskipara, Seydimli, Qaynaq, Qazyan kəndlərinin hər birində 1 ədəd olmaqla, ümumilikdə, 15 subartezian quyusu sakinlərin istifadəsinə verilib. Bu subartezian quyuları vasitəsi ilə 700 hektar əkin sahəsi suvarılacaq.

Qax rayonunda Qum kəndində də yeni subartezian quyusu əhalinin istifadəsinə verilib. Bundan başqa, rayonun kəndlərində 6 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulur. O cümlədən, Qax rayonunda suvarılan torpaqların ümumi sahəsi 19 min 700 hektar təşkil edir.

Şəmkir rayonunun Yeni Həyat kəndində istifadəyə verilmiş yeni subartezian quyusu vasitəsilə 30 hektar əkin sahəsinin suvarılması nəzərdə tutulub. Hazırda Şəmkir rayonunda 774 artezian və subartezian quyusu fəaliyyət göstərir. 2016-2017-ci illərdə rayonda 15 subartezian quyusu istifadəyə verilib. Növbəti mərhələlərdə də əhalinin suya olan tələbatının ödənilməsi üçün yeni quyuların qazılması nəzərdə tutulur.

Ağdam rayonunda isə son 5 ildə 122 yeni subartezian quyusu qazılaraq istifadəyə verilib. Dövlət başçısının "Ağdam rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2016-cı il 7 dekabr tarixli Sərəncamına əsasən, rayonun 15 yaşayış məntəqəsində 30 subartezian quyusunun qazılmasına başlanılıb. Həmçinin, pambıqçılığın inkişafı üçün bu il əlavə olaraq 4 subartezian quyusunun qazılması da nəzərdə tutulub. Ağdam Mexaniki Suvarma İdarəsi rayonda 35 min 400 hektar əkin sahəsini suvarma suyu ilə təmin edir. Rayon ərazisində əkin sahələrinin suvarılması 836 subartezian quyusu, 4 nasos stansiyası, 192 hidrotexniki qurğu, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalları vasitəsilə həyata keçirilir. Bir sözlə, bu gün əhalinin içməli su ilə təminatı və suvarma məsələləri dövlətin diqqəti mərkəzindədir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün qazılacaq 150 subartezian quyusu bu sahədə yeni nailiyyətlərin əldə olunmasına töhfələrini verəcək.

***"Səs" Analitik Qrupu***

# Cocuq mərcanlıların 24 illik yurd həsrətinə son qoyulur

## *Doğma kənddə yeni evlərə sahib olan Cocuq Mərcanlı sakinlərinin burada salınmış qəsəbəyə köçürülməsinə başlanılıb*

***Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpa olunması ilə bağlı Sərəncamına əsasən tikilən evlər qəsəbədə yaşayacaq məcburi köçkünlər arasında püşkatma yolu ilə paylanılıb.***



AZƏRTAC xəbər verir ki, iyulun 3-də Cocuq Mərcanlıdan olan məcburi köçkünlərin doğma yurdlarına köçürülməsi ilə əlaqədar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində yaradılmış komissiyanın iclası keçirilib.

Dövlət Komitəsi sədrinin müavini, komissiyasının sədri Gəray Fərhadov çıxış edərək diqqətəçatdırıb ki, hələ ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə - 1994-cü ilin yanvarın 6-da uğurlu Horadiz əməliyyatı ilə Cocuq Mərcanlı işğaldan azad edilmişdi. Lakin Lələtəpə yüksəkliyi düşmənin nəzarətində olduğundan kənddə yaşamaq qeyri-mümkün idi. Hərb tariximizə qızıl hərflərlə yazılmış 2016-cı ilin aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad edilməsi mövcudtəhlükəni aradan qaldırdı. Bundan dərhal sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Sərəncam imzaladı. İnşaatçılar vaxt itirmədən qəsəbənin tikintisinə başladılar. İlkin olaraq, 50 mənzil və 100 yerlik məktəb binası tikildi. Mart ayının 20-də başlanan tikinti işləri mayın 20-də başa çatdırıldı. Qəsəbədə tikilən 50 evdən 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isədördotaqlıdır. Su, qaz, elektrik, telefon xətləri çəkilib, su anbarı inşa edilib. Küçələrdə gecəişıqlandırma sistemi qurulub, qəsəbədaxili yollara asfalt örtüyü çəkilib. Dövlətimizin başçısının tapşırığına əsasən, qəsəbədə Şuşa məscidinin bənzəri də inşa olunub.





Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə son 23 ildə 6 milyard manatdan çox vəsait yönəldilib. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Bu barədə məlumat verən Gəray Fərhadov qeyd edib ki, görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb: "Əgər indiyədək məcburi köçkünlər həmin qəsəbələrə müvəqqəti yaşamaq üçün köçürülürdülərsə, bu dəfə belə deyil. Yəni, Cocuq Mərcanlıda salınan yeni qəsəbəyə həmin kəndin sakinləri orada daimi yaşamaq üçün köçürülürlər. İlk növbədə, 50 ailə doğma yurda qayıdacaq".

İyunun 14-də Prezident İlham Əliyev yenidən qurulan Cocuq Mərcanlıda açılış mərasimində iştirak edib. Sədr müavini bildirib ki, bundan bir gün sonra dövlətimizin başçısı "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin davam etdirilməsi, o cümlədən 100 evin, uşaq bağçasının, həkim məntəqəsinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədi ilə Prezidentin ehtiyat fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 9 milyon manat ayrılıb.

"Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasını daim diqqətdə saxlayır, bu insanlara xüsusi qayğı ilə yanaşırlar. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkünlərin problemlərinə həsr etməsi, onların bir qisminə Masa-



zırda yeni mənzillərin verilməsi, Qaradağ rayonunun Lökbatan qəsəbəsi yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməlinin qoyulması bu diqqət və qayğının bariz göstəricisidir", - deyə G.Fərhadov vurğulayıb.

İclasda çıxış edən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Cocuq Mərcanlı kənd icra nümayəndəsi Xanlar Zeynalov, kənd sakinləri Avçı Məmmədov, Gülxanım Həziyeva vəbaşqaları onların Vətən həsrətinə son qoyduqları üçün dövlətimizin başçısına minnətdarlıqlarınıbildiriblər.

Çıxışlardan sonra püşkatma mərasimi keçirildi. Cocuq Mərcanlıdan olan 50 ailə üzvü növbə ilə püşk çəkərək, daimi ocaqlarının yeni ünvanlarına sahib oldular.

Komissiyanın sədri Gəray Fərhadov məlumat verdi ki, artıq köçürülmə ilə bağlı hazırlıq işləri başa çatdırılıb və proses sabahdan start götürür.

Püşkatma mərasimindən sonra təəssüratlarını AZƏRTAC-la bölüşən Cocuq Mərcanlı sakini İsmət Həziyev dedi: "Aprel döyüşləri bir daha sübut etdi ki, Azərbaycanın güclü ordusu var və biz ona güvənərək doğma yurda qayıdırıq. İnanırıq ki, Azərbaycan bayrağı tezliklə bütün Qarabağımızdadalğalanacaq. Mən müəlliməm. Bugünkü püşkatma ilə ata yurdumuzda yeni evimizə sahib olduq. İnşallah tezliklə, ailəmlə kəndimizə köçəcək, təsərrüfat quracaq, doğma məktəbimizdə uşaqlarımızın təhsili ilə məşğul olacağam".

Digər kənd sakini İlkin Təbrizli isə gəncdir. O, indiyədək görmədiyi Cocuq Mərcanlıya qayıdışın həsrəti ilə yaşayır. "Hər bir insanın bir çox arzusu var. Mənim ən böyük arzum müəllim olub, doğma kəndimizin şagirdlərinə dərs demək idi. Müəllimlik diplomu almışam. Xoşbəxtəm ki, indiCocuq Mərcanlıya gedib bu arzuma çatacam. Sağ olsun Prezidentimiz, doğma yurdumuzu yenidən qurdu, bizə qaytardı. Kəndimizdə yeni məktəb də tikilib. Böyük səbirsizliklə Cocuq Mərcanlıda dərs deyəcəyim günü gözləyirəm", - deyə İlkin sevincini bizimlə bölüşdü.

Gülxanım Nəsirovanın üzündən də sevinc hissləri oxunurdu. O, 24 ildir həsrətini çəkdiyi ata-baba yurduna qayıdışın doğurduğu bu hissləri dilə gətirərək dedi: "Axır ki, uzun illərin Vətən həsrətinə son qoyuruq. Doğma torpağa qayıtmaq mənim də ən böyük arzum idi. Allah Prezidentimizdən razı olsun, onun sayəsində bu arzuma çatdım. İnanıram ki, işğal altındakı bütün şəhər və kəndlərimiz dəazad olunacaq, məcburi köçkünlər bizim kimi öz yurdlarına qayıdacaqlar. İnşallah, sizi də Cocuq Mərcanlıda gözləyəcəyik. Gəlin, doğma Qarabağımızda qonağımız olun!"

Vaxtilə azğın düşmənin yerləyeksan etdiyi Cocuq Mərcanlı bu gün gözlərimiz önündə bərpa olunaraq ikinci həyatını yaşayır, doğma sakinləri öz ağuşuna alır. Bu qayıdış torpaqlarımızın azad olunması istiqamətində Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli və ardıcıl siyasətin məntiqi nəticəsi, Qarabağa Böyük Qayıdışın ilk müjdəsidir.

# Nazirlər Avstriyanın Mauerbax şəhərində görüşəcəklər



***RİA "Novosti"nin yaydığı məlumata görə, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbandyan iyulun 11-də Avstriyanın Mauerbax şəhərində ATƏT-in Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşü çərçivəsində görüşəcəklər. Məlumatda qeyd olunur ki, həmsədrlər regiona son səfərləri zamanı görüşün həmin vaxt keçirilməsini təklif ediblər.***

*Azər Həsrət: "Görüşün Dağlıq Qarabağ münaqişəsinin həllində nəyisə ciddi şəkildə dəyişəcəyinə ümid etmək yanlış olardı"*

Nazirlərin görüşünə ATƏT-in Minsk Qrupunun üç həmsədri də qatılacaq. Bu görüş Dağlıq Qarabağ münaqişəsinin həllinə nə verə bilər? Siyasi şərhçi Azər Həsrət "Səs" qəzetinə açıqlamasında bildirdi ki, görüşün Dağlıq Qarabağ münaqişəsinin həllində nəyisə ciddi şəkildə dəyişəcəyinə ümid etmək yanlış olardı: "Çünki Ermənistandakı rejim bu dəfə də, sadəcə, danışıq xatirinə masa arxasına oturacaq, özünü konstruktiv göstərməyə çalışacaq və guya münaqişənin həllində maraqlı olduğunu göstərmək istəyəcək. Bunun işğal altındakı torpaqlara bir faydası olacaqmı? Təbii ki, yox. Yenə də görüntü, yenə də danışıq xatirinə danışıq".

"Bütün hallarda ortada bu cür iddialar var ki, Sarkisyan rejimi Dağlıq Qarabağ münaqişəsində status-kvonun saxlanılmasına cəhd göstərir. Bu reallığın fonunda hansısa danışıqların aparılmasına nə dərəcədə lüzum var" sualına cavab olaraq A.Həsrət bildirdi ki, indiki şəraitdə Azərbaycanın bu danışıqlardan imtinası dünyada yanlış anlaşıla bilər: "Biz bir tərəfdən hərbi və iqtisadi gücümüzü, ordunun hazırlıq səviyyəsini artırırıq, digət tərəfdən də bu imkanlarımızı ermənilərə, məhz elə danışıqlar masası arxasında xatırladırıq. Ona görə də, belə danışıqların bizim üçün faydasız olduğunu iddia etmək yanlış olardı".

"Aprel uğursuzluğundan sonra cəbhədə erməni təxribatlarının ardıcıl xarakter daşıdığı müşahidə edilir. Sizcə, bu kimi təxribatlar nəyə hesablanıb və Sarkisyan rejimi bununla nə demək istəyir" sualına cavab olaraq, siyasi şərhçi A.Həsrət bildirdi ki, Sarkisyan rejiminin cəbhə xəttində davamlı təxribatlar törətməsi, daha çox Ermənistanın daxili ictimai rəyinə hesablanıb: "Bu yolla Sarkisyan sadə ermənilərin gözünü qorxudub öz hakimiyyət müddətini uzatmaq istəyir. Yəni görürsünüzmü, Azərbaycan bizi daim qorxu altında saxlayır və bizim başımız cəbhədə savaşa qarışmışkən, heç kim fərqli siyasi iddia ilə çıxış etməməlidir. Bu gedişlər Sarkisyanın yalnız özünə lazımdır. Sadəcə, arada çox zaman dünyadan xəbəri olmayan erməni gəncləri həyatdan məhrum olur".

***GÜLYANƏ***

# Yunus Oğuzun daha bir tarixi romanı işıq üzü görüb




Yazıçı-publisist Yunus Oğuzun daha bir romanı işıq üzü görüb. SİA-nın xəbərinə görə, müəllifin "Atabəy Eldəniz" adlı kitabı Yunus Oğuzun sayca 7-ci tarixi romanıdır. Kitaba ön sözü Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, professor, millət vəkili İsa Həbibbəyli və filologiya elmləri doktoru, akademik, AMEA-nın müxbir üzvü , millət vəkili Nizami Cəfərov yazıb. Yazıçı bu əsərdə Azərbaycan tarixində mühüm yer tutmuş daha bir bir görkəmli dövlət xadiminin romanını yaradır və Azərbaycan Atabəyliyini dövlət səviyyəsinə qaldıran ilk Atabəy Şəmsəddin Eldənizin həyat və fəaliyyətinə işıq salır.

# Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə xəbərdarlıq edib



Havanın temperaturunun + 41 dərəcə selsidən çox olduğu hallarda işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görülməlidir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə müraciət edərək bildirir ki, yay mövsümündə kəskin isti hava şəraitinin mövcud olduğu vaxtlarda işçilərin həyat və sağlamlığının qorunması üçün qanunvericiliyin tələblərinə əsasən zəruri tədbirlər görülməlidir. Bu barədə SİA-ya ƏƏSMN-in İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu + 41 dərəcə selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilənin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir. Dövlət Əmək Müfəttişliyi Xidməti havanın temperaturunun + 41 dərəcə selsidən çox olduğu hallarda işçilərin həyat və sağlamlığının qorunması məqsədilə qanunvericiliyin tələblərinə riayət olunmasını işəgötürənlərin diqqətinə çatdırır.

# Naxçıvan Dövlət Universitetinin tələbələri Şahbuz rayonunda olublar



Muxtar respublikanın füsunkar təbiəti ilə seçilən Şahbuz rayonunun ərazisində yerləşən Ağbulaq İstirahət Mərkəzində təşkil edilən "Yay məktəbi" davam edir. AZƏRTAC xəbər verir ki, "Yay məktəbi" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası İcra Katibliyinin iştirakı ilə reallaşdırılır. Ağbulaq İstirahət Mərkəzinin növbəti qonaqları Naxçıvan Dövlət Universitetinin (NDU) tələbələri olub. İstirahət mərkəzi ilə tanışlıqdan sonra onlar hər cür şəraitə malik otaqlarda yerləşdiriliblər. Üç gün müddətində təşkil olunan növbəti "Yay məktəbi"ndə NDU-da təhsil alan 60 tələbə iştirak edib. Məktəbin ilk günü "Gəzinti və ekskursiyaların insan psixologiyasına təsiri" mövzusunda seminar və "Nuh yurdu" intellektual oyunu keçirilib. Günün sonunda isə vətənpərvərlik mövzusunda film nümayiş olunub.

"Yay məktəbi"nin ikinci günü səhər gimnastikası ilə başlayıb. Daha sonra tələbələr "Gənclərdə fərdi inkişaf və özünüifadəetmə üsullarının təbliği" mövzusunda seminarda iştirak edib, müxtəlif idman oyunlarına qatılıb, Ağbulaq kəndini gəzib, Şahbuz Rayon Mədəniyyət Şöbəsinin kollektivi tərəfindən təqdim olunan konsert proqramına baxıblar. Məktəbin üçüncü günü isə gənclər Şahbuz Dövlət Təbiət Qoruğuna baş çəkiblər. Gəzinti zamanı çəkilən fotoların müsabiqəsi təşkil edilib. Müsabiqədə, həmçinin "Nuh yurdu" intellektual oyununda və "Yay məktəbi"ndə fərqlənənlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanları ilə təltif olunublar. Günün sonunda gənclər Naxçıvan şəhərinə yola düşüblər.

# İranda Azərbaycan mədəniyyəti günləri başlayıb



İyulun 3-də İranda Azərbaycan mədəniyyəti günləri başlayıb. Bununla əlaqədar İranda səfərdə olan Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev iyunun 3-də İranın mədəniyyət və islam irşadı naziri Salehi Əmiri ilə birgə mətbuat konfransı keçiriblər. Mətbuat nümayəndələrinin suallarını cavablandıran Ə.Qarayev qeyd edib ki, mədəniyyət günlərinin qarşılıqlı şəkildə keçirilməsi xalqların biri-birini daha yaxından tanımasına imkan yaradır. Ə.Qarayev bildirib ki, hər iki ölkənin prezidentləri siyasi iradə nümayiş etdirərək xalqların mənafeyi naminə bütün sahələr üzrə, o cümlədən mədəniyyət və turizm sahəsi üzrə əlaqələrin genişləndirilməsini istəyirlər. Hər iki ölkənin müvafiq qurumları prezidentlərin tapşırıqlarını layiqincə yerinə yetirəcəklər.

# Deputatlarımız ATƏT PA-nın illik sessiyasında iştirak edəcəklər




Milli Məclis Sədrinin müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə deputatlar Azay Quliyev, Kamran Nəbizadə, Elşad Həsənov və Tahir Mirkişili ATƏT Parlament Assambleyasının 26-cı illik sessiyasında iştirak etmək üçün iyulun 4-dən 10-dək Belarusun paytaxtı Minskdə səfərdə olacaqlar. Milli Məclisdən SİA-ya verilən xəbərə görə, "ATƏT regionunda sülh və inkişaf naminə qarşılıqlı etimad və əməkdaşlığın möhkəmləndirilməsi" mövzusuna həsr olunan sessiyada öncə Daimi komitə toplaşacaq, sonra Belarusun Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə sessiyanın təntənəli açılış mərasimi olacaq.

Sessiya iştirakçıları plenar iclaslarda günün aktual məsələlərini müzakirə edəcək, ATƏT regionunda sülh və inkişaf naminə qarşılıqlı etimad və əməkdaşlığın möhkəmləndirilməsi barədə fikir mübadiləsi aparacaqlar. Demokratiya, insan hüquqları və humanitar məsələlər, İqtisadi məsələlər, elm, texnika və ətraf mühit, Təhlükəsizlik və siyasi məsələlər üzrə Ümumi komitələrin iclaslarında bir sıra qətnamə layihələrinə münasibət bildiriləcək. Qurumun illik sessiyasında Şərqi Avropada vəziyyət, miqrantlar və qaçqınlar problemi təhlil ediləcək. Ölüm hökmünün ləğvi, Ukraynanın suverenliyinin və ərazi bütövlüyünün bərpası, Belarusda vəziyyət kimi məsələlər gündəmdə olacaq. ATƏT regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, iqlim dəyişikliyi şəraitində içməli su ehtiyatlarının mühafizəsi vacibliyi önə çəkiləcək. Terrorizmə qarşı mübarizədə ATƏT-in rolunun gücləndirilməsinə, müxtəlif dinlərin nümayəndələrinə qarşı diskriminasiya və dözümsüzlüyün yolverilməzliyinə diqqət yönəldiləcək. Uşaqların internetdə cinsi istismara məruz qalmasının qarşısının alınması üçün texnoloji nailiyyətlərdən istifadə vacib sayılacaq. Yeni texnoloji səsvermədən istifadə şəraitində seçkilərin müşahidəsi və digər məsələlərə baxılacaq.

Azərbaycan parlamentinin nümayəndəsi Tahir Mirkişili sessiyada "Multikulturalizm - qloballaşma şəraitində demokratiyanın inkişafında mədəni dəyərlərin rolu" mövzusunda hazırladığı qətnamə layihəsini təqdim edəcək. Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri iclaslarda fəal iştirak edəcək, müzakirə edilən məsələlərə münasibət bildirəcək, təkliflərini diqqətə çatdıracaqlar. Səfər iyulun 10-da başa çatacaq.

# YAP 700 min üzvü ilə yeni qələbələrə doğru!

## İlham Əliyev: "Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, xalq partiyasıdır"

***Bu, bir faktdır ki, Azərbaycanın dövlət müstəqilliyinin rəsmən elan olunduğu 1991-ci ilin 18 oktyabrından sonra ölkəmiz böyük fəlakətlə üzləşdi. Bir-birini sürətlə əvəzləyən müvəqqəti iqtidarların şəristəsiz siyasəti dövlətə və xalqa qarşı edilən xəyanətlər Azərbaycanı, nəinki yenicə qazandığı müstəqilliyini itirmək, hətta bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşdirmişdi. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz idarəetmə üsülü mövcud ağır vəziyyəti daha da ağırlaşdırırdı. Xalqın sabaha olan inamı, demək olar ki, tamamilə sarsılmışdı. Məhz belə bir faciəli vəziyyətdə xalqı təlaşdan çıxarmağa, onun sabaha inamını qaytarmağa qadir olan mütəşəkkil siyasi qüvvənin - partiyanın yaranması zamanın tələbi idi.***



Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlandı. 1992-ci il oktyabrın 16-da "Səs" qəzetində dərc edilən və Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. 1992-ci il oktyabrın 24-də ziyalıların müraciətinə cavab məktubunda Ümummilli Lider Heydər Əliyevin yaranmış vəziyyəti dərindən təhlil etməsi və çıxış yolunu göstərməsi noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirmişdi. Ümummilli Lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Sədrlik edirdi. Dahi Öndər Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, Onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin manеələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldu. Azərbaycanın bütün regionlarını əhatə edən nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirilmişdi. Təsis konfransı YAP-ın yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etmişdi. Konfransda böyük siyasi xadim Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilmişdi. Beləliklə, müstəqil Azərbaycan tarixində mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası siyasi meydana çıxmış və dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi istiqamətində mübarizəyə başlamışdı. Ümummilli Lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının tarixi şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək demişdir: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaradılmışdır".

Azərbaycançılıq, dövlətçilik, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın siyasi məfkurəsinin əsasını və Azərbaycanın siyasi gələcəyi uğrunda apardığı fəaliyyətin ideya bazasını təşkil edir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin oktyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi YAP-ın fəaliyyətində yeni mühüm dövrün əsasını qoymuşdu. Belə ki, YAP-ın iqtidar partiyası kimi statusu yeni şəraitə uyğun dəyişmiş, siyasi həyatda oynadığı rol güclənmiş və aparıcı siyasi qüvvəyə çevrilərək, ictimai-siyasi həyatın bütün sahələrində yüksək fəallıq nümayiş etdirməyə başlamışdı. Müstəqilliyimizin ilk illərində yaşanan böhran Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasəti nəticəsində aradan qaldırıldı. Xaos, anarxiya və özbaşınalığın sabitliklə əvəzlənməsi Azərbaycanın iqtisadi baxımdan qüdrətlənməsinə və siyasi mövqeyinin möhkəmlənməsinə səbəb oldu.

### Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən aparıcı partiyasıdır

2005-ci ilin mart ayında keçirilən YAP-ın III qurultayından sonra partiyanın həyatında yeni mərhələ başladı. Qurultayda təşkilati məsələlərə baxıldı və Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini Cənab İlham Əliyev partiyanın Sədri seçildi. Bu dönəmdən başlayaraq, müstəqil Azərbaycan dövlətinin qurucusu, YAP-ın yaradıcısı, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, ölkənin təhlükəsizliyini təmin etmək iqtidarında olan ordunun yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirildi və bu prosesdə YAP daim ön sıralardadır. YAP üzvləri ölkəmizin daha da güclənməsi naminə partiyamızın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla bu siyasətin uğurlarını xalq arasında geniş təbliğ etməkdədir. Prezident İlham Əliyevin YAP-ın Sədri seçilməsindən sonra kəmiyyət və keyfiyyət baxımından partiyada əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olundu. Faktlara diqqət yetirdikdə, ötən müddət ərzində, Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil güclənidiyinin bir daha şahidi oluruq. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyanın üzvlərinin sayı 700 mindir. Yəni bu gün, birmənalı şəkildə demək olar ki, YAP kəmiyyət və keyfiyyət baxımından alternativsiz partiyadır. Onun arxasında 700 minlik ordu dayanıb, hansı ki, bu günə qədər bu sayda gücə malik siyasi təşkilat Azərbaycanda olmayıb. 25 illik fəaliyyəti dövründə partiyamız Ümummilli Liderimiz Heydər Əliyevin yolu ilə irəliləyərək, çox böyük və şərəfli yol keçib. Cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu yolu əzmkarlıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ləyaqətlə xalqa xidmət göstərir.

Ümumiyyətlə, partiyamız yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olmuşdur. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək, müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib. YAP-ın məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir.

# YAP 700 min üzvü ilə yeni qələbələrə doğru!

## *İlham Əliyev: "Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, xalq partiyasıdır"*



YAP öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Prezident İlham Əliyev çıxışlarının birində xalqın partiyası olan Yeni Azərbaycan Partiyası haqqında demişdir: "Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, xalq partiyasıdır. Xalqımızın bütün təbəqələri, bütün yaş qrupları partiyamızda birləşir və ölkəmizin uğurlu inkişafı üçün öz fəaliyyətini göstərirlər. Keçən qurultaydan ötən dövr ərzində partiyamız daha da güclənmişdir. Partiyamıza böyük axın vardır".

Ulu Öndərin ideyaları üzərində bərqərar olaraq meydana çıxan Yeni Azərbaycan Partiyası milli vəhdətə, müstəqilliyini yenicə əldə etmiş dövlətimizin təlatümlərdən qurtuluşuna can atan, ölkənin faciələr, sarsıntılar dövrünü keçmişə buraxaraq sabit, ardıcıl, məqsədyönlü inkişaf yoluna qədəm qoymasını arzulayan və bu prosesə öz töhfəsini vermək istəyən Azərbaycan gənclərinin birlik və bərabərlik ünvanı oldu. Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra qadınlarımız Onun milli inkişaf strategiyasının fəal müdafiəçiləri oldular.

1995-ci ildə Ulu Öndərin tövsiyəsi ilə Yeni Azərbaycan Partiyasının mərkəzi və yerli təşkilatlarının tərkibində qadınlar şuralarının yaradılması böyük ictimai dəstəklə müşayiət olunurdu. Ulu Öndər Heydər Əliyevin siyasi dəstəyinə inanan Azərbaycan qadınlarının qabaqcılları belə bir təşəbbüsü yaxından müdafiə edir, bu şuranın işində fəal iştirak etmək üçün dəstə-dəstə Yeni Azərbaycan Partiyasının sıralarına qoşulurdular. Ulu Öndər qadınlarla bağlı demişdir: "Qadınların adları və xidmətləri bizim tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Ancaq XX əsrdə Azərbaycan qadınının keçdiyi yol, əldə etdiyi nailiyyətlər, həqiqətən, dünya miqyasında bizim üçün iftixar mənbəyinə çevrilmişdir. İndi biz hədsiz iftixar hissi ilə deyə bilərik ki, cəmiyyətimizin hər bir sahəsində qadınlar böyük rol oynayır".

Azərbaycan qadını bu qiymətin, bu mənəvi məsuliyyətin işığında yeni əsrdə üzərinə düşən vəzifələri düzgün dəyərləndirərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizdə gedən çoxşaxəli inkişaf proseslərinə öz töhfələrini verməyə çalışır. Bu siyasətə verilən dəstəklə Prezident İlham Əliyevin Azərbaycana qazandırdığı nailiyyətlərin məzmununda özünün, ailəsinin, övladlarının gələcəyinə ünvanlanmış arzularının addım-addım reallığa çevrildiyini görür. YAP-a gənclərin axını həm kəmiyyət, həm də keyfiyyətcə daha da zənginləşib. Hazırda gənclər ümumi partiya üzvlərinin təqribən 40 faizini təşkil edir. YAP üzvü olan gənclərin böyük əksəriyyəti ali təhsillidir, gənclərdən 176 nəfəri fəlsəfə doktoru, 6 nəfəri isə elmlər doktoru kimi fəaliyyət göstərir. Bundan əlavə, YAP-ın gənc üzvləri sırasında idman ustaları, Dünya, Avropa, Respublika, Olimpiya çempionları, eləcə də, İslam Həmrəylik Oyunlarının qalibləri də var. Hər zaman olduğu kimi, bu gün də Yeni Azərbaycan Partiyasının gənc üzvləri partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyir və bu siyasəti ölkə ictimaiyyəti, o cümlədən, gənclər arasında təbliğ edirlər.

### Yeni Azərbaycan Partiyası yeni inkişafa, yeni uğurlara doğru

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının V qurultayında Mehriban xanım Əliyevanın şəxsində, ümumilikdə Azərbaycan qadınına böyük etimad göstərildi. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin müavini seçilməsi ilə Azərbaycan qadınının siyasətdə təmsilçiliyinə böyük dəyər verildi və bu fakt qadınlarımızın Yeni Azərbaycan Partiyasına axınını daha da stimullaşdırdı. Çünki qadınlarımız, bir daha dərk etdilər ki, YAP-ın üzvü olmaq şərəfdir, YAP-ı təmsil etmək qürurdur. Əqidəli yeni azərbaycanlı olmaq ali mənəviyyat və yüksək ləyaqətdir. Dünyada ən böyük məktəb, hansısa dəyərli keyfiyyəti əxz etmək üçün təsirli vasitə bir insanın öz həyat və fəaliyyəti ilə yaratdığı şəxsi nümunədir. Mehriban xanım Əliyeva, bu mənada, Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir. Müasir Azərbaycan tarixinə dünyanın bir çox demokratik, sivil ölkələrinin ictimai həyatında faydalı bir norma kimi çoxdan sabitləşmiş birinci xanım ənənələrini gətirən Mehriban Əliyeva ümumilikdə, bəşəriyyətə təlqin etdiyi prinsiplərlə mədəni dəyərlərə saygını, insanın insana mərhəmətini, sevgisini, xeyirxahlığı, tolerantlığı, dözümlüyü müasir dünyamızda insan həyatının əsas mənası kimi gündəmə gətirir. Bu gün mədəniyyətlər arasında dialoq məkanına çevrilmiş Azərbaycanda təşkil edilən beynəlxalq tədbirlər, bütün dünyada bu yöndə aparılan maarifləndirmə ilə multikulturalizmi, savadlılığı, sivilizasiyalar arasında qarşılıqlı təmasları dünyanı bir çox bəlalardan, konfliktlərdən, toqquşmalardan hifz edə biləcək dəyər kimi diqqətə çatdırır. Onun təşəbbüsü ilə Azərbaycan mədəniyyəti incilərinin - səsimizin, sözümüzün bütün dünyada təbliği, dövlətimizin dəstəyi ilə ölkə daxilində və ölkədən xaricdə keçirilən mədəni tədbirlər, reallaşdırılan layihələrlə Azərbaycan özü bu prosesin ən fəal iştirakçısı qismində çıxış edir.

### Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır

Tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif amillərlə yanaşı, həm də demokratik seçkilərdən asılıdır. Fərəhli haldır ki, müstəqillik dövründə dünyanın demokratik dəyərlərini tam mənimsəyən Azərbaycan Respublikasında seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi ənənəsi formalaşıb. Bu ənənənin müəllifi xalqımızın Ulu Öndəri Heydər Əliyevdir. Heydər Əliyevin zəhməti sayəsində 1993-cü ildən etibarən respublikamızda demokratik seçkilərin keçirilməsi üçün son dərəcə zəruri sayılan ictimai-siyasi sabitlik təmin edilib, Azərbaycanın demokratik dünyaya inteqrasiyasının əsası qoyulub, o cümlədən, beynəlxalq təcrübəyə söykənən mütərəqqi, hüquqi seçki qanunvericiliyi bazası yaradılıb.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə respublikamızı dinamik inkişaf yoluna çıxaran Prezident İlham Əliyev həyata keçirdiyi siyasi xətlə cəmiyyətimizdə demokratik ənənələri daha da möhkəmləndirib. Bunun bariz göstəricilərindən biri seçkilərin azad və şəffaf keçirilməsi üçün seçki sisteminin daha da təkmilləşdirilməsi istiqamətində mühüm işlərin həyata keçirilməsi, səsvermə günü seçki məntəqələrində veb-kameraların quraşdırılması, bütün dairə-seçki komissiyalarının yeni inzibati binalarla və müasir zəruri texniki vasitələrlə təmin olunması, seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsidir. Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda 5 prezident, 4 parlament və 4 bələdiyyə seçkisi keçirilib. Bütün bu seçkilərə dair beynəlxalq təşkilatların verdikləri müsbət rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə vətəndaşların siyasi şüuru, seçki mədəniyyəti daha da yüksəlib. Bütün seçkilərdə YAP xalqın yüksək etimadını, dəstəyini qazanıb və parlaq qələbələrə imza atıb. Bu baxımdan, əminliklə demək olar ki, xalqın partiyası olan YAP bundan sonra da bütün seçkilərdə uğurlar əldə edəcək. Çünki YAP xalqın partiyasıdır. Xalq Ulu Öndərin qurucusu olduğu partiyaya inanır və işıqlı sabahlara ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə getməkdə qərarlıdır.

**İ.ƏLİYEV**

# "Alimentlə bağlı dəyişiklik nikahların pozulması hallarını azalda bilər"



***Bildiyiniz kimi Milli Məclisin iyunun 30-da keçirilən son növbədənkənar iclasında "İcra haqqında" qanuna dəyişiklik qəbul edilib. Qanunun 13-cü maddəsinə (İcra sənədlərinin icraya yönəldilməsi müddətləri) təklif edilən yeni bəndə əsasən alimentlərin alınması haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri dərhal icraya yönəldiləcək. Yeni dəyişiklik hansı problemlərin qarşısını alacaq? SİA məsələyə aydınlıq gətirməyə çalışıb.***

## "Yeni təklif valideyn məsuliyyətinin artmasına səbəb olacaq"

Hüquqşünas Vüqar Səfərli bildirib ki, əvvəllər alimentlərin ödənilməsi digər məsələlərdə olduğu kimi, qətnamə qəbul olunduqdan və ya qanun qüvvəyə mindikdən sonra icra olunurdu: "Bu, həm aliment alan yeni uşağın, həm də onun himayəsində uşaq saxlayan valideynin hüquqlarının pozulmasına gətirib çıxarırdı. Belə ki, bunun nəticəsində alimentin gecikdirilməsi, icra mərhələsinin yubadılması kimi problemlər yaranırdı. Əslində uşağın həyat səviyyəsinin təmin olunması, saxlanması məhkəmə qətnaməsinin və onun qüvvəyə minməsini gözləyən məsələ deyil. Bu baxımdan da düşünürəm ki, Mili Məclisin son iclasında "İcra haqqında" qanuna edilən dəyişiklik çox müsbətdir və alimentin icra olunmasında qətnamənin qanun qüvvəyə minməmişdən öncə dərhal icraya yönəldilməsi məsələsi valideynin özündə məsuliyyətin artmasına səbəb olacaq".

## "Bununla nikahların pozulması halları azala bilər"

Hüquqşünasın sözlərinə görə, yeni dəyişiklik hətta nikahların pozulması hallarının azalmasına da səbəb ola bilər: "Ümumiyyətlə, ailə quran, rəsmi nikaha girən ər və arvadın sonradan yola getməməsi, bir-birinin sözünü qəbul etməməsi, davranış qaydalarının pozulması və digərləri cütlüklərin ilə institutuna önəm verməməsindən irəli gəlir. Hər kəsə məlumdur ki, hazırda nikahın pozulması artan xətlə davam edir. Təəssüfedici hal olsa da, bu özünün statistikada da göstərir. Nikahların pozulması hallarında əsas məsələlərdən biri əmlak, aliment məsələsidir. Bu baxımdan hesab edirəm ki, qanuna edilən dəyişiklik müsbət haldır və güman edirəm ki, yeni qərar nikah pozulma hallarının azalmasına gətirib çıxaracaq. Qanun özündə daha çox uşağı saxlamaq öhdəliyini ehtiva edir. Azərbaycanda uşaq hüquqları ən yüksək statusa malikdir və bu status dövlət tərəfindən qorunur. Bunu nikahı pozmaq istəyən valideynlər də dərk etsə, yaxşı olar".

## "Şikayətlərin əksər hissəsi məhz alimentlərlə bağlıdır"

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova söyləyib ki, İnzibati Xətalar Məcəlləsinə əsasən qərarlar iki cür - dərhal icra olunan və icra olunan qaydada yerinə yetirilir: "Aliment məsələsi bundan öncə icra olunanlar sırasında idi və o müddət ərzində alimentdən yayınma halları var idi. Bundan öncə alimentin ödənilməsi ilə bağlı məsuliyyət məsələsi olsa da, lakin bununla bağlı kifayət qədər məsuliyyətə cəlb olunma olmadığı üçün alimentlər bağlı problem gündəmdə qalmışdı. Bilirsiniz ki, Ədliyyə Nazirliyinin qaynar xəttinə daxil olan, eləcə də digər şikayətlərin əksər hissəsi məhz alimentlərlə bağlıdır. Əvvəllər məhkəmə qaydasında alimentlərlə bağlı dərhal icra etmə tələbi olmadığı üçün bəzi hallarda məhkəmələrdə buna o qədər ciddi baxmırdılar. Lakin yeni qərara əsasən məhkəmə qərarı qəbul olunduqdan və icraçıya istiqamətləndikdən dərhal sonra artıq problemlə bağlı dərhal tədbirlər görüləcək. Bu baxımdan məsələni yüksək qiymətləndirir və düşünürəm ki, yeni qərar ölkəmizdə əsas problemlərdən olan alimentin ödənilməməsi məsələsinə öz müsbət təsirini göstərəcək".

## "İcra haqqında" qanuna edilən dəyişiklik alimentin ödənilməməsindən yaranan fəsadların qarşısını alacaq"

Birlik sədri qeyd edib ki, "İcra haqqında" qanuna edilən dəyişiklik eyni zamanda alimentin ödənilməməsindən yaranan fəsadların qarşısını alacaq: "Alimentin ödənilməməsi nəticəsində bir çox hallarda analar uşaqlarına baxa bilmir ki, bunun da nəticəsində zorakılıq halları, uşaqların atılması və digər məsələlərə yol açır. Bu baxımdan düşünürəm ki, yeni dəyişiklik sadalanan problemlərin sayını da azalda bilər". Qeyd edək ki, bir müddət öncə alimentlərin alınması haqqında qərarların dərhal icraya yönəldilməsi ilə bağlı Mülki Prosessual Məcəlləyə də dəyişiklik edilmişdi.

***Nailə Məhərrəmova***

# "Qalib sən ol!" idman yarışları keçirilib

***Azərbaycan Respublikası Uşaq və Tələbə-Gənclər Dünyası İctimai Birliyi (UTGDİB) şəhid, əlil, qaçqın, məcburi köçkün, valideynsiz (bəzən hər ikisini itirmiş), və imkansız ailələrdən olan uşaq, gənc və tələbələrin problemlərini aradan qaldırmaq üçün Azərbaycan Respublikasının Qanunvericiliyi çərçivəsində dövlət orqanları və digər təşkilatlarla əlaqələr yaradır, birgə humanitar tədbirlər həyata keçirir. Hazırda birlik üzvlərinin sayı 2000-dən çoxdur. Cəmiyyət müxtəlif profillər üzrə istedadlı uşaqları axtarıb taparaq üzə çıxarır, uşaqlar arasında müsiqi festivalı və idman yarışları keçirərək qalibləri mükafatlandırır.***




"Qalib sən ol!" idman yarışları layihəsi Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi və "Spartak" idman klubunun iştirakı ilə həyata keçirilib. Layihənin məqsədi gənclərdə idman ruhun aşılanması, mübarizəyə həvəsin artırılması, komandada işləmək bacarıqlarının əldə olunub tətbiq olunmasıdır. Yarış öncəsi layihə rəhbəri Bəxtimşah Tağıyeva qeyd edib ki, layihə gənclərin idmana həvəsinin artırılması nöqteyi-nəzərdən əhəmiyyətlidir. "Spartak" idman klubunun 100 üzvünün iştirakıyla güləş yarışı keçirildi. 3 komanda arasında keçirilən yarışda qaliblər diploma və köynəklə mükafatlandırıldı. Təşkilat uşaqlar arasında 4 komandanın iştirakı ilə fulbol yarışı keçirdi. Qalib komandalara kubok təqdim olundu və onlara xatirə köynəkləri və diplomlar verildi. Sonra uşaqlar üçün şirniyyat süfrəsi açıldı. Hər iki oyunda qaliblərə tutduqları yerlərə görə I,II,III dərəcəli diplomlar paylanıldı. Beləliklə, layihə uğurla yekunlaşdı.



# Həm şansları, həm də ixtiyarları yoxdur!

**RƏFİQƏ**

***Son günlər dağıdıcı müxalifət düşərgəsində baş verən qarşıdurmalar, bir daha onu göstərir ki, indiki təşkilatların taleyi tarixin arxivinə göndərilmiş qurumlardan fərqlənməyəcək. Bu arada, Müsavat və AXCP rəhbərlərinin "xüsusi fəallıq" göstərmələri isə yenə diqqətdən yayınmır. Bu iki partiya arasında qarşıdurmanın əsas səbəbi 2018-ci ildə keçirilməsi planlaşdırılan prezident seçkiləridir. Müsavatçıların sabiq başqanı İsa Qəmbərlə AXCP sədri Əli Kərimlinin bu məsələdə iddiaları faktdır. Digər tərəfdən, o da maraqlıdır ki, 24 ildir ki, birlikdən, həmrəylikdən danışan bu iki "liderin" heç biri geri çəkilmək barədə düşünməyib və indi də belə davam edir.***

Bu arada daim İ.Qəmbər Ə.Kərimlinin ünvanına ağır ittihamlarla çıxış edən ADP sədri Sərdar Cəlaloğlu bu yaxınlarda növbəti dəfə bildirib ki, hər iki "lider" arasında ziddiyyət və qarşıdurma daha da gərginləşəcək. Yəni qarşıdan prezident seçkiləri gəldiyinə görə "partiya maraqları" daha sürətlə qabarmağa başlayır. Əgər ortalıqda dövlət mənafeyi və milli maraqlar yoxdursa, onda insanlar fərdi maraqlarını təmin etmək üçün qarşı-qarşıya gələcəklər. Təbii ki, S.Cəlaloğlu "fərdi maraqlar" - dedikdə, İ.Qəmbər ilə Ə.Kərimlinin bir-birinə qarşı tutduqları radikal mövqeyə eyham vurur.

Həm İ.Qəmbər, həm də Ə.Kərimli həlledici məqamda bir-birinə güzəştə getməyəcəklərini əvvəlcədən gözəl bilirdilər. Bu barədə kifayət qədər faktlar var. Eləcə də, hər iki partiya "lideri" arasındakı qarşıdurma kampaniyaları sıravi partiya üzvləri tərəfindən də hiss edilir. Elə də uzağa getməyərək, ötən seçkilərdə sosial şəbəkələrdə müsavatçıların Ə.Kərimli haqqında, cəbhəçilərin isə İ.Qəmbər haqqında "meyxana" qoşmaları, ən təhqiramiz ifadələrdən istifadə etmələrini xatırlasaq, onlar arasındakı vəziyyətin hansı vəziyyətdə olmasını bir daha təsəvvürümüzdə canlandıra bilərik. Hətta o zaman Müsavat məclisinin üzvü Arif Hacılının qardaşı Mustafa Hacıbəyli bildirmişdi ki, sosial şəbəkələrdə Müsavat rəhbərinə qarşı təhqir dolu fikirlərin səsləndirilməsi kampaniyasının arxasında Ə.Kərimli dayanır. Ümumiyyətlə, bu gün müxalifət düşərgəsində AXCP və Müsavatın adlarının hərdənbir çəkilməsi, o demək deyil ki, bu qurumlar və ya onların başçıları digərlərindən güclüdür, və ya fəaldır. Bu qurumlar, əslində, tarixi partiyaların adlarını manipulyasiya edərək, özlərini tanıtmağa çalışırlar. AXCP AXC-nin, Müsavat da keçmiş Müsavat partiyasının adını daşıyır, indi həmin adlar üzərində özlərini qəbul etdirməyə çalışırlar. Reallıq isə budur ki, indiyədək ictimai-siyasi təşkilat rəhbərlərindən bir neçəsi öz vəzifələrinə könüllü olaraq xitam vermirlər.

Əlbəttə, Azərbaycan ictimaiyyəti üçün destruktiv müxalifət düşərgəsində prezidentliyə namizədin kim olacağının elə bir əhəmiyyəti yoxdur. Çünki həmin namizədin kimliyindən asılı olmayaraq, istənilən müxalif namizəd xalqın heç 0,1 və ya 0,2 faizinin səsini də toplaya bilməz. Bu reallığı isə dərk etməyən adamın, ümumiyyətlə, hər hansı kürsüdə oturmaq şansı, hətta ixtiyarı yoxdur!

# Daşlarda yaşayan ortaq dəyərlərimiz

***"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət - ənənələrinə dözümlü olmalıdırlar".***

Ümummilli Lider Heydər Əliyev söylədiyi bu dəyərli fikirlər Azərbaycanın müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin əmin-amanlıq və qarşılıqlı əməkdaşlıq şəraitində yaşadıqları unikal bir ölkə olduğunu deməyə əsas verir. Yüz illərdir möhkəm dayaqlara, zəngin ənənəyə, dərin tarixə və mənəvi köklərə malik olan tolerantlıq Azərbaycan xalqının və dövlətinin milli-mənəvi dəyərinə çevrilib.

## Azərbaycanda bütün millətlərin və xalqların nümayəndələri vahid bir ailənin üzvləri kimi yaşayırlar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də zaman-zaman çıxışlarında ölkədə yaşayan azsaylı xalqların və millətlərin daim azad və firavan yaşaması üçün bütün imkanların yaradıldığını diqqətə çatdırır: "Azərbaycanda bütün millətlərin və xalqların nümayəndələri vahid bir ailənin üzvləri kimi yaşayırlar. Milli azlıqların qorunması Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin ən əsas istiqamətlərindən biridir. Azərbaycanda digər xalqların və millətlərin də azad və firavan yaşaması üçün hər cür şərait yaradılmışdır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir".

Bu gün Azərbaycanın bütün sahələrində - siyasətdə, təhsildə, idmanda, mənəvi həyatda müxtəlif xalqların nümayəndələrini görmək mümkündür.

Azərbaycanda yaşayan azsaylı xalqların milli bayramlarının keçirilməsi, onların təşkili işinə xüsusi diqqət ayrılır. Müsəlmanların, yəhudilərin, xristianların və digər təriqət və məzhəb sahiblərinin də dini bayramları hörmətlə anılır.

Bundan başqa, ölkəmizdə həmin dinlərin tarixi, mədəni abidələri və zəngin mənəvi irsi dövlət tərəfindən qorunub saxlanılır.

Bu istiqamətdə Heydər Əliyev Fondunun və onun rəhbəri, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyevanın xidmətlərini xüsusi vurğulamaq yerinə düşərdi. "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın" (Mehriban Əliyeva).

Mehriban xanım Əliyeva sözləri ilə deyil, əməli fəaliyyəti ilə də ölkəmizdəki multikultural dəyərlərin və ənənələrin qorunmasına hər zaman dəstək olub. Onun təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan - tolerantlıq ünvanı" layihəsi çərçivəsində Bakıda Pir Həsən ziyarətgahı, "Müqəddəs Məryəm - mövlud" pravoslav kilsəsi və Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral Kilsəsi, Şamaxıda Cümə məscidi və Gəncədə "Həzrəti Zeynəb" məscidindən tutmuş Fransanın müxtəlif bölgələrində kilsələrin, Strasburqda XIV əsr Kafedral Kilsəsinin vitrajlarının, habelə Həştərxanda Knyaz Vladimirə abidə ucaldılmasına qədər müxtəlif dini obyektlərdə bərpa işləri aparılıb. Beynəlxalq birlik Mehriban Əliyevanın təşəbbüsü ilə Müqəddəs Roma katakombalarının bərpa olunmasını xristian aləminin müqəddəs abidələrinin qorunub saxlanılmasına müsəlman dünyasının töhfəsi kimi qəbul edir.

> Azərbaycanda yaşayan azsaylı xalqların milli bayramlarının keçirilməsi, onların təşkili işinə xüsusi diqqət ayrılır. Müsəlmanların, yəhudilərin, xristianların və digər təriqət və məzhəb sahiblərinin də dini bayramları hörmətlə anılır. Bundan başqa, ölkəmizdə həmin dinlərin tarixi, mədəni abidələri və zəngin mənəvi irsi dövlət tərəfindən qorunub saxlanılır.

## Avropanın ən böyük sinaqoqu Bakıda inşa edilib

Məskunlaşdıqları bir çox ölkələrdə işgəncə və təzyiqlərə məruz qalan yəhudilər yurdumuza pənah gətirərək, 2500 ildən artıqdır ki, bu bölgədə sülh və qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Onlar ölkəmizdə heç vaxt dini dözümsüzlüyə və ayrı-seçkiliyə məruz qalmamış, əksinə, daim yerli əhalinin diqqət və qayğısı ilə əhatə olunublar.

Ölkəmizdə ümumi sayı 16 min təşkil edən yəhudilər Azərbaycanda üç qurumla - Dağ, Əşkinazi və Gürcü yəhudiləri icmaları ilə təmsil olunur. Quba rayonundakı Qırmızı qəsəbə postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə məkandır. Ölkəmizə XIX əsrdə pənah gətirən Əşkinazi yəhudiləri daha çox Bakı və Sumqayıtda məskunlaşıblar.

2003-cü ilin mart ayında Azərbaycan hökumətinin diqqəti sayəsində Bakıda yeni yəhudi sinaqoqu istifadəyə verilib. Avropada ən böyük sinaqoq sayılan bu ibadətgah köhnə məbədin yerində inşa olunub. 2003-cü ilin sentyabr ayında Bakıda "Or-Avner" Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlayıb.

## Sovet dönəmində dağıdılan kilsələr müstəqillik illərində yenidən bərpa olunub

Azərbaycanda yəhudi icmaları ilə bərabər xristianlığın pravoslavlıq, katoliklik və protestantlıq qollarını təmsil edən dini icmalar da fəaliyyət göstərir. Ölkəmizdə pravoslavlıq qoluna mənsub xristianlar çoxluq təşkil edir, xristianlıq, əsasən Bakı, Sumqayıt və Gəncə şəhərlərində geniş yayılıb.

Azərbaycan hökumətinin qərarı ilə 1920-ci ildə bağlanmış Cen Mironosets kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav kilsəsinə verilib. Onu da qeyd edək ki, kilsəni 1907-ci ildə məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev inşa etdirib. 2001-ci ilin may ayında Azərbaycanda səfərdə olan bütün Rusiyanın Patriarxı II Aleksi bu məbədə baş kafedral kilsə statusu verib. Kilsə sovet hakimiyyəti dövründə anbar kimi istifadə olunduğundan, dağıntılara məruz qalıb. Kilsə 2003-cü ilin mart ayında yenidən təmir edilərək, dindarların istifadəsinə verilib.

Azərbaycan hökuməti 1999-cu ildə katolik icmasının dövlət qeydiyyatına alınmasına şərait yaradıb, əvvəllər dini ayinləri evlərdə icra edən icma üzvlərinə 2000-ci ildə ibadətlərin yerinə yetirilməsi məqsədilə xüsusi bina alınıb və kilsəyə çevrilib. Sonrakı illərdə Azərbaycan hökuməti ilə Vatikan arasındakı razılığa əsasən, Bakıda Nobel prospektində Roma katolik kilsəsi inşa olunub.

## Yenidən həyat verilən yevangelik-lüteran kilsəsi

Tarixi araşdırmalar təsdiqləyir ki, XIX əsrin ortalarından Bakıya daha çox alman və İsveç əsilli insanlar gəlməyə başlamışlar. Bakıda yaşanan neft bumu ölkəyə xaricdən işçi qüvvəsinin gəlməsi ilə nəticələnir. O dövrdə Bakıda məskunlaşan alman və İsveç əsilli insanlar burada dini ibadət üçün bu kilsəni tikmək qərarına gəlirlər. Tarix boyu tolerantlığı ilə nümunə olan xalqımız bu ideyanın həyata keçirilməsində onlara dəstək verir. Beləliklə, 1896-cı ilin martında Bakıda yevangelik-lüteran kilsəsinin təməli qoyulmuş və 1899-cu ildə istifadəyə verilmişdir. Sovet dönəmində bir çox dini ibadət ocaqları kimi, bu kilsənin də fəaliyyəti dayandırılır, bəzi hallarda bina sökülmək təhlükəsi ilə üzləşir. Sonrakı illərdə bina Nazirlər Kabinetinin qərarı ilə kamera və orqan musiqisi zalı adlandırılaraq, Azərbaycan Dövlət Filarmoniyasının tabeliyinə verilir. O vaxtdan keçən dövr ərzində illər bu binada öz izini qoyur. Baxımsızlıq üzündən binanın tavanı, demək olar ki, tamamilə yararsız vəziyyətə düşmüşdü. Mebel və inventarların köhnəlməsi isə burada mərasimlərin təşkil olunmasını mümkünsüz etmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə binada əsaslı təmir və bərpa işlərinin aparılmasına başlanılmışdır. Azərbaycan mütəxəssisləri əsaslı təmir və bərpa işlərini binanın özünəməxsus orijinal üslubunu, qədim tarixi memarlığını qorumaqla həyata keçirmişlər. Ənənəvi alman qotik memarlığının ən gözəl nümunələrindən olan binanın akustikasına xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, binada ilk dəfə havalandırma sistemi qurulmuşdur.

## Udi etnosunun itirilmiş hüquqları tam bərpa edilib

Azərbaycanda dövlət qayğısı ilə əhatə olunan azyaşlı, qədim xalqlardan biri də, əsasən, Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərdir. Dünyada udilərin sayı 10.000-ə yaxındır ki, onların də təqribən 7000-i Azərbaycandadır. Əsrlər boyu azərbaycanlılarla udilər dinc şəraitdə, yanaşı yaşamış, onların arasında daim dostluq əlaqələri və qarşılıqlı anlaşma mövcud olmuşdur. Müasir dövrdə də bu ənənə uğurla davam etdirilir.

Azərbaycan hökumətinin diqqət və qayğısı sayəsində 2003-cü ildə Alban-Udi Dini İcması dövlət qeydiyyatına alınıb. 1836-cı ildə Rusiya çarının fərmanı ilə alban kilsəsi və katolikosluğu ləğv edilmiş, alban məbədləri erməni apostol kilsəsinə verilmişdi. Azərbaycan hökumətinin dini fəaliyyət sahəsində yetirdiyi uğurlu siyasət nəticəsində, udi etnosu itirilmiş hüquqlarını tam bərpa etmişdir. Onlara məxsus tarixi abidələrin bir qismi yenidən bərpa olunmuşdur ki, bunlardan biri Qafqazda, eləcə də, dünyada ən qədim xristianlıq məbədlərindən biri sayılan, vaxtilə Şəkinin Kiş kəndində inşa edilən alban kilsə-muzeyidir. Bu kilsə 2003-cü ildə əsaslı şəkildə bərpa olunaraq istifadəyə verilib. IV-V əsrlərə aid kilsənin təmirinə 2000-ci ildə başlanılıb və 2003-cü ildə başa çatdırılıb. Kilsənin bərpasında xarici alimlərlə yanaşı, azərbaycanlı alimlər də böyük əmək sərf edib. "Şərqin qapısı"nda multikulturalizm ənənələri yüksək səviyyədə yaşadılır

"Şərqin qapısı" adlandırılan Naxçıvan Muxtar Respublikasında da multikulturalizm ənənələri ən yüksək səviyyədə yaşadılır. Bunun ən bariz nümunəsi muxtar respublikanın Ordubad rayonunda yerləşən məbədidir. Uzun illər baxımsız vəziyyətdə qalan bu tarixi abidənin bərpa edilməsi Ordubadda tarixi-memarlıq abidələrinə göstərilən qayğının, multikulturalizm ənənələrinin ən yüksək səviyyədə yaşadılmasının nəticəsidir.

Ordubad məbədinin ümumi sahəsi 110 kvadratmetrdir. Ötən illərdə abidənin daxilində, qüllə və günbəzlərdə bərpa işləri aparılıb, fasadı üzlənib, ətrafı abadlaşdırılıb. Məbəddə Ordubada aid tarixi abidələrin fotoları və rəsmləri nümayiş etdirilir.

Sovet dövründə bir sıra tarixi abidələr, dini ibadətgah yerləri kimi Ordubad məbədi də müxtəlif məqsədlər üçün istifadə olunub. Bu tarixi abidə yolun tam ortasında ucaldıldığı üçün həmin illərdə zaman-zaman onun sökülməsi də gündəmə gəlib. Lakin rayon ziyalılarının etirazları nəzərə alınıb və məbədə toxunulmayıb.

Məbəd 1829-cu ildə rus əsgərləri tərəfindən inşa olunub. Uzun müddət rus pravoslav kilsəsi kimi fəaliyyət göstərib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrıseçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir".

***Jalə Bayramlı***

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# Əli Kərimlinin "siyasi mühacir" biznesi və iyrəncliklər



***AXCP sədri Əli Kərimlinin "siyasi mühacir" biznesindən əldə etdiyi gəlirlərdən dəfələrlə yazmışıq. Ə.Kərimli, haqqında səslənən haqlı ittihamlara cavab vermək əvəzinə, təxribatlar törədərək, öz cinayətlərini ört-basdır etməyə çalışır. Dövlətin ünvanına təhqirlər yağdıran Ə.Kərimli başa düşür ki, ictimaiyyəti çaşdırmaq üçün atdığı addımlar heç bir effekt verməyəcək və pul müqabilində dövlət maraqlarını anti-milli qüvvələrə satan digər şəxslər kimi, o da qanun qarşısında cavab verəcək. Bu haqda daha sonra... AXCP sədrinin "siyasi mühacir" biznesi bu gün hansı səviyyədədir? Ümumiyyətlə, baş verən son hadisələrdən sonra bu proses necə həyata keçirilir? Bütün bunlarla bağlı əldə etdiyimiz yeni məlumatlar diqqət çəkir.***

Məlum olub ki, AXCP sədri Ə.Kərimlinin "siyasi mühacir" biznesinin əsas ortaqlarından biri hazırda Hollandiyada yaşayan, "Azadlıq" qəzetinin keçmiş əməkdaşı Fikrət Hüseynlidir. F.Hüseynlinin məram və məqsədini anlamayan insanlardan zaman-zaman 2500-3000 AVRO tələb edərək, onları "siyasi mühacir" kimi Hollandiyada yerləşdirəcəyi vədi ilə aldadaraq, pullarını mənimsəməsi ilə bağlı faktları işıqlandırmışıq. Məsələn, AXCP-nin Nizami rayon təşkilatının üzvü Vüqar Əzizovun başına gətirilənlər buna sübut ola bilər. Bu adamdan öncə Ə.Kərimli 8000 manat, daha sonra isə F.Hüseynli 3000 AVRO pul alıb. AXCP-nin möhürü ilə V.Əzizova arayış da verilib. Məsələnin ən biabırçı tərəfi odur ki, AXCP-nin "siyasi mühacir"lik üçün verdiyi arayışlarda aşağıdakı cümlə xüsusi rəngdə verilir: "Polislə qarşıdurması olub, fotolar əlavə olunub..". Rəzalətdir!

F.Hüseynlinin "siyasi mühacir" biznesi ilə məşğul olduğunu, məhz buna görə təkcə Ə.Kərimliyə hesabat verdiyini sübut edən başqa bir məlumat əldə etmişik. "Azadlıq" qəzetinin baş redaktorunun müavini Rəhim Hacıyevin Avropaya üz tutmasından, yəqin ki, mətbuatdan məlumat əldə edənlər var. Bu adam Q.Zahidlə Ə.Kərimli arasıda seçim etməli oldu. Heç şübhəsiz ki, R.Hacıyev hələ Azərbaycanda ikən "siyasi mühacir" biznesinin mətbuatla bağlı tərəflərinə əsas cavabdeh şəxs idi. "Siyasi mühacir" kimi Avropaya göndəriləcək şəxsin haqqında şişirdilmiş məlumatları "Azadlıq"da dərc etmək onun vəzifəsi idi və buna görə pul da alırdı. R.Hacıyev Fransaya üz tutaraq, Q.Zahidlə birlikdə fəaliyyətlərini davam etdirəcəyini fikirləşmişdi. Lakin heç nə alınmadı. Q.Zahid onu yaxına buraxmadı. Əlacsız qalan R.Hacıyev F.Hüseynlinin təklifi əsasında Hollandiyaya üz tutub. Lakin bu da ona asan başa gəlməyib. Bunun üçün Fikrətə 1500 AVRO ödəyən R.Hacıyevi sonda bir neçə gün bundan öncə Hollandiya məhkəməsi tərəfindən deport edilib. Yəni R.Hacıyev Hollandiyadan qovuldu. Hazırda nə edəcəyini bilməyən R.Hacıyevin ağılsız hərəkətləri nəticəsində özü ilə apardığı ailəsi də çıxılmaz vəziyyətdə qalıb. Əldə olunan məlumatlara görə Fikrətin ondan aldığı 1500 AVROnun qaytarılması üçün Hollandiyadan Ə.Kərimliyə skaypla zəng edən R.Hacıyev rədd cavab alıb və alınan pulun tələb olunan sənədlərə sərf olunduğunu bildirib.

## "Nida"çılara söz verilib ki, eynicinsli insanlarla normal əlaqənin yaradılması üçün bütün şərait yaradılacaq

"Avropasayağı" geyim adı altında cırıq-cırıq şalvarlar geyinən, eynicinslilərin evliliklərinə normal baxan, lezbiyanlarla və geylərlə bağlı yaradılan təşkilatların üzvü olan "Nida"çılardan Hollandiyaya getmək istəyənlər daha çoxdur. Məsələn, dəqiqliyi heç bir şübhə doğurmayan mənbədən əldə olunan informasiyaya görə, son 2 ayda 9 nəfər cəbhəçi Hollandiyaya getmək üçün F.Hüseynli ilə əlaqə yaradıb. Onların bir hissəsi tələb olunan vəsaiti düzəltməklə məşğuldurlar. Ən dəhşətlisi isə budur ki, "Nida"çılara orada eynicinsli insanlarla normal əlaqənin yaradılması üçün hər cür şərait yaradılacaq. Hətta adını açıqlamadıqları 26-27 yaşlı bir "Nida"çı oğlanın artıq Hollandiyaya getdiyi, yaxın günlərdə onun başqa bir kişi ilə toy edəcəyi də bildirilir.

## <u>Deputat:</u> "Bu, saxtakarlıqdır, Azərbaycana və azərbaycançılığa qarşı xəyanətdir"

Ümumiyyətlə, AXCP-nin və digər dağıdıcı müxalifət partiya sədrlərinin müəyyən vəsait müqabilində ayrı-ayrı gənclərə üzvlük vəsiqəsi verərək, onları Avropaya "siyasi mühacir" kimi göndərmələri onlara nə verdi? Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə bildirib ki, onlar, sadəcə olaraq, müəyyən qrup vətəndaşları xaricə göndərmək üçün firma rolunu oynayırlar: "Əvvəlcə vətəndaşlara üzvlük vəsiqəsi verir, sonra isə ildə bir neçə mitinq keçirir və həmin mitinqlərdə müəyyən olunmuş adamların guya polis tərəfindən tutulması, zorakılığa məruz qalması ilə bağlı fotosessiya nümayiş etdirir. Bununla həmin şəxslərin xaricə getməsini təşkil edir. Bu mexanizm Azərbaycan cəmiyyətinə çoxdan məlum idi. Maraqlıdır ki, həmin kommersiyalaşmış müxalifətin rəhbərləri Azərbaycanda qaldıqları halda, partiyaya yeni qəbul olunmuş bir üzv qısa zamanda sıxışdırılmaq adı ilə Avropaya mühacirət edir. Doğrudan da, sıxıntı varsa, niyə bu partiya rəhbərlərinə qarşı özünü göstərmir? Azərbaycan cəmiyyətində tanınmayan və heç vaxt, heç bir siyasi prosesdə iştirak etməyən şəxs birdən-birə Avropaya köç edir. Hesab edirəm ki, bu, ilk növbədə, Azərbaycan siyasi müxalifətinin milli maraqlardan çoxdan uzaqlaşmasından xəbər verir.

**Samir**

# "Normalda Əli Kərimli siyasətdən uzaqlaşmalı və gedib başqa bir işin qulpundan yapışmalıdır"

*Mais Səfərli: "İnsanları güdaza verib, ondan siyasi dividend əldə etməyə çalışmaq utancverici haldır"*



Müsahibimiz "Yurddaş" Partiyasının sədri Mais Səfərlidir

***- Mais bəy, son vaxtlar AXCP sədri Əli Kərimli Gözəl Bayramlı ilə bağlı hay-küy qaldırmaqla siyasi dividend əldə etməyə çalışır. Sizcə, insanları güdaza verib, ondan siyasi dividend əldə etməyə çalışmaq nə dərəcədə siyasətçiyə başucalığı gətirə bilər?***

- Hazırda Gözəl Bayramlı ilə bağlı istintaq gedir. Burada AXCP sədri Ə. Kərimlinin G. Bayramlıdan öz maraqları üçün istifadə etməsi düzgün deyil. Çünki istintaq getdiyi halda, hansısa hərəkətlərə yol vermək, çaşdırıcı və hədələyici bəyanatlarla çıxış etmək istintaqa təzyiq kimi qiymətləndirilir. Bu isə qanunvericiliyin tələblərinə görə, cinayət məsuliyyəti yaradır. Ona görə də, praqmatik düşüncə tərzinə malik siyasətçi bu cür hərəkətlərə yol verməməli və istintaqın sonunu gözləməlidir. İnsanları güdaza verib, ondan siyasi dividend əldə etməyə çalışmaq utancverici haldır və haqlı olaraq da qınanılır.

***- Artıq sübuta yetirilir ki, Əli Kərimli üçün əsas prinsip öz maraqlarının təmin olunmasına çalışmaqdır. Bu, nədən qaynaqlanır?***

- Siyasətdə heç bir uğur əldə edə bilməyən və ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gələn bir siyasətçi bu gün, təbii ki, çirkin vasitələrdən istifadə etməklə, diqqət mərkəzinə çevrilməyə çalışacaq. Ə.Kərimli, əsasən, öz maraqlarının təmin olunmasına çalışır. Halbuki normalda Ə.Kərimli siyasətdən uzaqlaşmalı və gedib başqa bir işin qulpundan yapışmalıdır. Amma müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin əksəriyyəti siyasətdə qalmaq üçün yalnız öz maraqları üçün çalışırlar. Çünki artıq həmin şəxslər görürlər ki, siyasətdə heç bir uğur əldə edə bilmirlər və belə olan halda da bütün fəaliyyətlərini öz maraqlarının təmin olunmasına yönəldirlər. Bir sözlə, yalnız və yalnız özlərini düşünürlər.

***- Necə düşünürsünüz, bütün siyasi fəaliyyətləri dövründə bir-birinə düşmən kəsilən Müsavat və AXCP funksionerləri hansısa xarici qüvvələrin tapşırığına əsasən, olub-keçənləri unudub bir araya gələ bilərmi?***

- Dəfələrlə belə hallar olub. Yəni müxalifət düşərgəsində bir-birinə düşmən kəsilən siyasətçilər yenidən bir ayara gələrək, hansısa bloklar yaradıblar. Düzdür, müxalifət təmsilçiləri tərəfindən yaradılan bu blokların taleyi fiaskoya uğrayıb. Çünki o blokların yaradılmasında səmimi olmayıblar. Demək olar ki, müxalifət təmsilçilərinin, müvəqqəti olaraq birləşmələrinin səbəbləri, məhz xarici qüvvələrin istəyi əsasında baş tutur. Çünki bu gün cəmiyyət müxalifət təmsilçilərinin bir-birini qəbul etməmələrini çox gözəl bilir. Yəni müxalifət partiya sədrləri hansısa bir məsələ ilə bağlı biri digərinə heç vaxt güzəştə getməyib və getməyəcəkdir. Sadəcə olaraq, onları idarə edən qüvvələr görünür, hansısa bir məsələ ilə bağlı marağındadırlar ki, müxalifət təmsilçiləri müvəqqəti də olsa bir birlikdə olsunlar. Ancaq bu reallıqdır ki, səmimiyyət olmayan bir yerdə hər hansı bir irəliləyişdən söhbət belə gedə bilməz.

**GÜLYANƏ**

# Rəsul Quliyev AXCP və Müsavatı "düz" yola dəvət etdi



*Eks-spiker: "Hər iki partiyanın fəaliyyəti bolşevizm təfəkkürlüdür"*

ABŞ-da mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyev AXCP və Müsavat rəhbərliyinin 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı iddialı çıxışlarından əsəbiləşərək, onları alçaldan çıxışlar edib. Hər iki partiyanın fəaliyyətini bolşevizm təfəkkürünə bənzədən eks-spiker bildirib ki, məsələnin kökündə dayanan əsas fakt, iki partiyanın uzun illərdir ki, bir-birilərinə düşmən kəsilməsidir: "İlk növbədə, bu partiyaların bir - birilərinə düşmən olmasının səbəbini anlamaq lazımdır. Nümunə kimi bir - birilərini, Leninin nəzəriyyəsilə desək, antaqonist düşmən hesab edən Müsavat və AXCP-ni götürək..."

## "Söhbət həsəddən, paxıllıqdan, bir-birini yox etməyə hazır olmaqdan gedir"

Sabiq spiker bütün bunlarla yanaşı, həm cəbhəçilərin, həm də müsavatçıların seçkilərdə uğur qazanmaq imkanında olmadıqlarını, bunu onların özlərinin də bildiklərini deyib: "Hədəf Azərbaycanın gələcəyi və hakimiyyət dəyişikliyi olmadığı üçün daha güclü olmaq uğrunda rəqabətdən söhbət getmir. Hakimiyyətdən daha artıq imtiyaz qoparmaq üçün həsəddən, paxıllıqdan, bir-birini yox etməyə hazır olmaqdan söhbət gedir."

Müsavat və AXCP-nin seçki uğursuzluğunun, eləcə də, zəfliyinin kökündə həmin partiyaların şəxsiləşdirilməsi faktorunun da olduğunu istisna etməyən R.Quliyev hər iki siyasi təşkilatın yalnız kağız üzərində müxalifət olduqlarını iddia edib. Onun fikrincə, əslində, həm Müsavat başqanı, həm də cəbhə sədri təşkilatları biznes məkanına çeviriblər: "Partiyalar ayrı-ayrı şəxslərindir. Həmin şəxs maliyyəni tapır və kimlərəsə maaş verir. Bununla da partiya fəaliyyəti şəxsi biznesə çevrilir. Əgər lider istefa verərsə, deməli, partiyası da bağlana bilər. Ona görə də, "20 il heç bir uğuru olmayan partiyaların liderləri istefa verməlidirlər" deyəndə, partiyanın, bütövlüklə istefa verməsi kimi qəbul edirlər və "filankəs müxalifətin əleyhinədir, istəyir Azərbaycanda müxalifət olmasın"-deyə hay-həşir qoparırlar. Halbuki uğursuz liderin istefa verməsi inkişafın əsas şərtlərindən biridir".

**R.HÜSEYNOVA**

# "Özünüməşğulluq - öz məşğulluğunu qur və ailə biznesinə yiyələn"

***Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi bir dövrdə Azərbaycanda dövlət başçısının düşünülmüş siyasəti nəticəsində, ölkəmizdə sabitlik qorunub-saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Dünya miqyasında müasir inkişaf modeli ilə seçilən Azərbaycan son illərdə ölkənin bütün sferaları üzrə böyük uğurlara imza atıb.***

Sürətli sosial-iqtisadi inkişafını yaşayan Azərbaycanın əldə etdiyi uğurlar, tərəqqi hər bir vətəndaşın həyatında hiss olunur və insanların rifah halı günü-gündən yaxşılaşır. Eləcə də, əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də, büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin dövlət başçısının məlum sərəncamlarına əsasən, vaxtaşırı artırılması və s. Azərbaycanda sosial sahəyə ayrılan diqqət və qayğının nəticəsidir. Görülən işlər, deməyə əsas verir ki, Azərbaycanda aparılan siyasətin mərkəzində, məhz insan amili dayanır. 2004-cü ildən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin sərəncamları ilə reallaşan regionların sosial-iqtisadi inkişafına dair müvafiq dövlət proqramları respublikamızın sıçrayışlı inkişafını təmin etməklə yanaşı, insanların sosial həyatının dəyişməsində də mühüm rol oynamaqdadır. Məlum dövlət proqramlarında yeni iş yerlərinin açılması, biznes mühitinin yaradılması ilə bağlı həyata keçirilən tədbirlər insanların həyat tərzində böyük dönüş yaradıb.



## AZƏRBAYCANDA İLK DƏFƏ OLARAQ DÖVLƏT SƏVİYYƏSİNDƏ ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMININ İCRASINA BAŞLANILIB

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində, bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaratmışdır. Bu gün sahibkarlara daim diqqət göstərilir, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafında münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu.

Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də, kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaradıb. Bu məqsədlə, Prezidentin Ehtiyat Fondundan 6 milyon manat vəsait ayrılıb və ilk dəfə olaraq, Azərbaycanda dövlət səviyyəsində özünüməşğulluq proqramının icrasına başlanılıb. Sərəncamda ailə əməyinə əsaslanan təsərrüfatların yaradılmasının dəstəklənməsi, ailə biznesinin inkişafına şəraitin yaradılması yer alıb. Təbii ki, ailə biznesinə dəstək və onu bazarın sisteminin tələbləri əsasında idarəçiliyi kənd təsərrüfatı, ticarət, sənətkarlıq kimi sahələrinin və mikromaliyyələşdirmə yolu ilə inkişafı üçün təkan yaradacaq. Bu, bütövlükdə ölkədə davamlı makroiqtisadi sabitlik kimi dəyərləndirilir.

Sərəncamdan irəli gələrək Azərbaycanda, məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

Təbii ki, özünüməşğulluq proqramının praktik icrası nəticəsində, artıq kifayət qədər göstəricilər var. Belə ki, özünüməşğulluq proqramının praktik icrası çərçivəsində işsiz və işaxtaran vətəndaşlar üçün təşkil olunan təlim kursları keçirilib, uğurlu biznes planlara malik şəxslərin ailə təsərrüfatlarını yaratmaları üçün aktivlərlə - mal və materiallarla təminatına başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin statistik məlumatına istinadən, artıq 25 rayon üzrə işsiz və işaxtaran şəxs, əsasən, kənd təsərrüfatı və xidmət sahələri üzrə özünüməşğulluq fəaliyyətini qurmaları üçün aktivlərlə təmin olunub.

Statistik məlumata əsasən, Tərtər rayonu üzrə 18 nəfər, Laçın rayonu üzrə 12 nəfər, Hacıqabul rayonu üzrə 8 nəfər, Ağcabədi rayonu üzrə 15 nəfər, Beyləqan rayonu üzrə 14 nəfər, Xocavənd rayonu üzrə 10 nəfər, Bərdə rayonu üzrə 21 nəfər, Qəbələ rayonu üzrə 14 nəfər, Ağdam rayonu üzrə 32 nəfər, İsmayıllı rayonu üzrə 13 nəfər, Göyçay rayonu üzrə 11 nəfər, Ağsu rayonu üzrə 5 nəfər aktivlərlə təmin olunub. Həmçinin, Yevlax rayonu üzrə 15 nəfərin, Füzuli rayonu üzrə 20 nəfərin Cəbrayıl rayonu üzrə 12 nəfərin, Saatlı rayonu üzrə 8 nəfərin, Biləsuvar rayonu üzrə 9 nəfərin, Şirvan şəhəri üzrə 12 nəfərin, Lerik rayonu üzrə 7 nəfərin, Yardımlı rayonu üzrə 5 nəfərin, Neftçala rayonu üzrə 8 nəfərin ailə bizneslərini qurmaları üçün mal və materiallarla təminatı həyata keçirilib. Vətəndaşlar verilmiş aktivlər hesabına, əsasən, kənd təsərrüfatı və xidmət sahələri üzrə öz ailə təsərrüfatlarını formalaşdırıblar.

## RƏQABƏTQABİLİYYƏTLİ AİLƏ TƏSƏRRÜFATLARININ FORMALAŞDIRILMASI YOLU İLƏ ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİ ARTIRILIB

Qeyd edək ki, Azərbaycan Prezident Cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması bu sahədə mühüm addımların atılmasında əhəmiyyətli rol oynayır.

Sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması yolu ilə əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlib. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələrin həyata keçirilməsidir. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq, tərəvəzçilik (istixana), pərakəndə satış kimi istiqamətlər üzrə uğurlu şəkildə özünməşğulluq fəaliyyəti qurublar.

Məlumdur ki, artıq "ABAD"-a qoşulan ailələrin məhsullarının nümayişini həyata keçirmək üçün "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində "ABAD" sənətkarlıq mərkəzi də fəaliyyət göstərir. Mərkəz dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək göstərmək missiyasını həyata keçirir. Belə ki, bu sahədə ilkin olaraq Masallı, Balakən, İsmayıllı, Şəki və Bakı şəhərindən, ümumilikdə sənətkarlıqla bağlı 63, kənd təsərrüfatı sahəsi üzrə isə 30 ailə seçilib. "ABAD"-ın qısa bir zamanda yaradılmasına baxmayaraq, bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən də, BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq edir. Əməkdaşlıq çərçivəsində, ailələrin biznesə cəlb edilməsini təşviq etmək üçün bir ailənin istehsal avadanlıqları ilə təchiz olunmuş ət məhsulları istehsalı konteyneri ilə təmin olunmasında UNDP maliyyə dəstəyi göstərmişdir.

## ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ DÖVLƏT SİYASƏTİNİN PRİORİTETİNƏ ÇEVRİLİB

Vətəndaşlar əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlər insanlarda məmnunluq yaradır. Ailə biznesinin qurulması və inkişafı da sosialyönümlü layihələr sırasında uğurlu hesab olunur. Təbii ki, bunun böyük nəticələri var. Ekspertlərin qənaətinə görə, iqtisadi böhran şəraitində ailə biznesi modeli ilə işləyən strukturlar daha etibarlı və dayanıqlı olur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının yüksək səviyyədə icrası və özünüməşğulluq fəaliyyətinin təşkili ilə əlaqədar müvafiq normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində ardıcıl işlər görülüb. Hər bir bölgə üzrə özünüməşğulluq fəaliyyəti çərçivəsində dayanıqlı və gəlir gətirə bilən biznes sahələrinin müəyyən olunması istiqamətində nəticələr əldə olunub və bu, davam etməkdədir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi respublikamızın rayon və şəhərlərində işsiz və işaxtaran şəxslərin mal və materialların alınıb verilməsi işlərini davam etdirir. Ümumilikdə, 1500 nəfərə yaxın şəxsin ailə bizneslərini qurmalarına imkan yaradacaq proqramın icrası işlərinin yaxın aylar ərzində tam başa çatdırılması planlaşdırılır.

Bu gün ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi sağlam biznes mühitini yaradıb. Təbii ki, bu da fərdi təsərrüfata sahib olan iştirakçılar, onların özünüməşğulluğunun təmin olunması, ailə gəlirlərinin artırılması, ümumən, biznes imkanlarına malik olmaları üçün yaradılan şərait onlarda məmnunluq hissini yaradır. Qətiyyətlə deyə bilərik ki, bu gün ölkəmizdə aztəminatlı vətəndaşların sosial təminatının gücləndirilməsi işləri ilə yanaşı, onlar aktiv əmək bazarı proqramlarına cəlb olunublar. Ölkə vətəndaşları bacardıqları işlə məşğul olmaqla yanaşı, dövlət yardımına olan ehtiyacları da aradan qalxmış olur. Qeyd etdiyimiz Sərəncam, həqiqətən də, böyük əhəmiyyət daşıyan bir sənəddir və öz nəticəsini verir.

Göründüyü kimi, dövlət başçısının "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı dövlət məşğulluq siyasətində vətəndaşların özünüməşğulluğuna şərait yaradıb. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Qətiyyətlə vurğulamaq olar ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetinə çevrilib. Sosialyönümlü layihələrin icrası da, məhz bu məqsəddən qaynaqlanır.

***ZÜMRÜD BAYRAMOVA***

***Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

TƏRS BAXIŞ

# Müxalifətdə kimlər və nəyə görə qanun qarşısında cavab verməlidir?

## Tural Abbaslı: *“Saxta müxalifətçilər və onlara vəsiqə verən partiya sədrləri ciddi şəkildə cəzalandırılmalıdırlar”*



***Son zamanlar müxalifət düşərgəsində yaşanan qarşıdurmalardan biri də “mühacir biznesi” ətrafında yaşanan ziddiyyətlərdir. Daha dəqiqi desək, bu ziddiyyətlərin yaranmasına səbəb Qərb ölkələrinə müxtəlif adlar altında köçərək, orada yaşamaq izni almaq üçün əl-ayaqdan gedən insanlara partiya vəsiqələri satmaqdan ibarətdir ki, AXCP və Müsavat kimi siyasi təşkilatlar bu məsələdə bir-birləri ilə qeyri-qanuni biznes rəqabətinə girişiblər.***

### “Mühacir biznesinin” yaranmasına səbəb xarici donorların Azərbaycana tərəf uzanan əllərinin “kəsilməsidir”

Milli və dövlət maraqlarını sataraq guya Azərbaycanda katastrofik dərəcədə demokratiya qıtlığını “əsas” gətirərək, guya mitinqlərdə “fəallıq” göstərmiş insanlara, yəni saxta müxalifətçilərə saxta vəsiqələr verən partiya “liderləri”, hətta qiymət preyskurantları da müəyyənləşdirərək, müxtəlif adlarda təkliflər irəli sürməklə məşğuldurlar. Artıq bu barədə kifayət qədər məlumatlar mediada yazılıb, faktlar və sübutlar da öz təsdiqini tapıb.

Ümumiyyətlə, heç bir siyasi fəaliyyəti olmayan şəxslərin Avropada siyasi mühacir kimi yaşamaları onsuz da yeni hadisə deyil. Belə ki, siyasi partiyaların və siyasiləşmiş QHT-lərin xarici donor təşkilatlarından qrantlar almalarını əngəlləyən qanun qüvvəyə mindikdən sonra, radikal xarakterli müxalifət partiyaları dərhal qazanc amili kimi, məhz “mühacir biznesini” icad etdilər.

Başqa tərəfdən, insanların “siyasi mühacirətə” necə getmələri, hansı üsul və yol tapmaları sualı daim müzakirə mövzusu olaraq qalmaqdadır. Yəni onların necə, nə zaman müxalifətçilik etmələri, partiya biletlərini necə əldə etmələri verilən əsas suallardan biridir.

### “Ağ Partiya” sədri: “Demokratiya adı altında ədalətsizlik edir və heç bir siyasi fəaliyyəti, əziyyəti olmayan adamlara partiya vəsiqəsi verirlər”

Bu arada, sabiq müsavatçı funksioner, “Ağ Partiya”nın sədri Tural Abbaslının sözügedən mövzu ilə bağlı fikirləri maraq doğurur. SİA-nın məlumatına görə, T.Abbaslı bu barədə fikirlərini açıqlayarkən deyib ki, ümumiyyətlə, saxta vəsiqə verən partiya sədrləri cəzalandırılmalıdırlar. O, siyasət üzərindən qeyri-qanuni biznes quran “liderləri” dırnaqarası müxalifətçi hesab etdiyini deyərək qeyd edib ki, əslində, bu məsələdə günahkar olan iki tərəf var.

Real müxalifətin bu cür fəaliyyət göstərməli olmadığını deyən “Ağ Partiya” sədri əsl müxalifətçinin elə özünün, eyni zamanda, digər normal fəaliyyət göstərən müxalifət qurumlarının olduğunu bildirib. “Bu məsələdə haqsızlıqlar son dövrlər özünü daha qabarıq şəkildə göstərir”-deyə qeyd edən T.Abbaslı “siyasi mühacir” biznesi ilə məşğul olan düşərgə təmsilçilərinin haqsız olduqlarını vurğulayıb. Partiya sədri qəti şəkildə bu işlə məşğul olanların qanun qarşısında cavab verməli olduqlarını vurğulayıb: “Bu baxımdan, hesab edirəm ki, saxta müxalifətçilər və onlara vəsiqə verən partiya sədrləri ciddi şəkildə cəzalandırılmalıdırlar”.

***Rövşən RƏSULOV***

# Leyla Yunus kimilərin qanunla cəzalanmaları sosial-ictimai sifarişdir

***Məlum olduğu kimi, Bakı Apellyasiya Məhkəməsində Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində çıxarılmış hökmdən verilmiş şikayət üzrə məhkəmə prosesi keçirilib. Məhkəmədə işə baxan hakim Mirpaşa Hüseynov bildirib ki, Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və həyat yoldaşı Arif Yunusun məhkəməyə məcburi gətirilmələri haqda çıxarılmış qərar uyğun orqanlara göndərilib.***

Qeyd edək ki, ötən ilin noyabrın 12-də Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə A.Yunus barəsində həbs qətimkan tədbiri dəyişdirilib və ondan başqa yerə getməməklə bağlı iltizam alınıb. Dekabrın 9-da isə L.Yunus barəsində seçilmiş həbs qətimkan tədbiri ləğv edilib, o, 5 il sınaq müddəti təyin olunmaqla məhkəmə zalından şərti azadlığa buraxılıb. Bundan başqa, onun qızının evinə qoyulmuş həbs götürülüb. Həmin məhkəmə qərarından narazı qalan L.Yunus və A.Yunus kassasiya şikayəti veriblər. Onlar barələrində bəraət hökmü çıxarılmasını istəyirlər. 2016-cı il aprel ayında L.Yunus və A.Yunus Azərbaycanı tərk edərək, Hollandiyaya gediblər. Onu da qeyd edək ki, hazırda Hollandiyada yaşayan Leyla Yunus və həyat yoldaşı o vaxta qədər gəlməsələr, növbəti iclasda onların barəsində həbsli axtarış qərarı çıxarıla bilər.

### Satmağı və satılmağı həyat fəlsəfəsinə çevirən Leyla Yunus



Bu, heç də təəccüb doğurmur. Çünki bütün həyatı boyu satmağı və satılmağı həyat fəlsəfəsinə çevirən Leyla Yunusun bu xisləti hələ 1992-1993-cü illərdə - Dağlıq Qarabağda hərbi əməliyyatlar gedərkən, onun Müdafiə Nazirliyində informasiya və təhlil mərkəzinə rəhbərlik etdiyi dövrdən bəlli idi. Həmin zamanlardan bəri davam edən “fəaliyyətini biznesə çevirmiş” Leyla Yunus bu işini erməni qohumları və dostları hesabına daha da genişləndirmişdi. Laura Baqdasaryan, David Şahnazaryan (Ermənistan xüsusi xidmət orqanlarının keçmiş rəhbəri), Riçard Kirakosyan (Vaşinqton), Qrant Baqratyan (keçmiş nazir, indiki deputat), Vaqan Xaçaturyan (Yerevanın sabiq meri), Arnold Stepanyan, Marina Karapetyan (erməni diasporunun nümayəndələri), İqor Martirosyan (Ermənistan XİN), Lilit Petrosyan (Vaşinqton), Mari Titizyan (Kanada), Karine Stepanyan, Dağlıq Qarabağ separatçısı Samvel Babayan kimi bədnam ermənilərdən dəstək alan L.Yunusun müxtəlif ağır cinayətlərdə ittiham olunaraq, həbs edilənlər üzərində qurduğu “siyasi məhbus” biznesi günü-gündən böyümüşdü. Əlbəttə ki, bunların arxasında xarici ölkələrdə, xüsusilə də, Avropada bahalı malikanələr, lüks villalara yatırılan pullar dayanırdı. Məhz keçirilmiş məhkəmə prosesində bu vəsaitin haradan əldə olunmasına aydınlıq gətirildi.

Daim Vətənə xəyanətdə təqsirli bilinən, bu fəaliyyətlərinə görə ictimai qınaqla üz-üzə qalan Leyla və Arif Yunuslar bu gün özlərinə nə qədər haqq qazandırmağa çalışsalar da, faktların qarşısında aciz qalaraq, onları örtbasdır etməyin mümkünsüzlüyünü gördükdə, gücsüzlüklərini hiss edirlər. Artıq bu reallığın bir daha şahidi oldular ki, yalanın həqiqət üzərində qələbəsi qeyri-mümkündür.

Bir sözlə, Leyla Yunus kimilərin əsas fəaliyyəti maddi maraqlarından irəli gəldiyindən, onlar üçün milli maraqlar, xalqın mənafeyi anlayışı heç bir məna kəsb etmir. Bu səbəbdən də, Leyla Yunus kimilərin qanunla cəzalanmaları sosial-ictimai sifarişdir.

***Rəfiqə HÜSEYNOVA***



# Kürəkən gərək cəbhəçi olsun

**SAMİR**

***Adını çəkmək istəmirəm, şəxsi həyatlarıdır, özləri bilər. Deməli, AXCP funksionerlərindən birinin qızına elçi gəliblər, ancaq qohumluq baş tutmayıb. Səbəb olduqca gülməlidir. Deməli, AXCP funksioneri qızını ona görə verməyib ki, oğlan AXCP üzvü deyil. Eyni zamanda, oğlanın dövlət işində işlədiyini biləndən sonra, az qalıb ki, elçiləri söysün. Qısası, qızla oğlanın bir-birini sevməsinə baxmayaraq, izdivac baş tutmayıb. Qızın dədəsi deyirmiş ki, oğlan dövlət işində işləyir və bu dövlətdən pul alır, mənim qızıma dövlətdən aldığı pulla çörək ala bilməz.***

Mənim bu bədbəxt qız atasına, ermənipərəst müxalifətin AXCP adlı psixi xəstələr bölməsinin baş psixlərindən birinə sualım var. Oğlan bu dövlətdə işləyir, bu dövlətdən də aldığı maaşla ailəsini saxlamalıdır. Başa düşmürəm, oğlan bu dövlətdə işləyib başqa dövlətdənmi maaş alıb qızına çörək almalıdır? Başa düşürəm e, vallah, sizin bu sahədə təcrübəniz var və ailənizə də illərdir çörəyi belə qazanırsız. Məsələn, Azərbaycanın çörəyini yeyib, suyunu içirsiniz, adını “iş” qoyub illərinizi AXCP-də çürüdürsünüz, maaşı da xaricdən-Qərbin terrorçu təşkilatlarından, erməni oliqarxlardan alırsınız... Sizə belə kürəkən sərf eləmir, sizin kürəkən mütləq cəbhəçi olmalıdır, dövlət işində işləməyi özünə ar bilməlidir, cəbhələşməlidir və xaricdən alınan maaş cədvəlində onun da adı olmalıdır. Mən özüm də çox fikir vermişəm, belələri dövlət işində işləyən qohum-əqrəbaları ilə də düşmənçilik edirlər. Bunlar belə düşünür ki, hər kəs cəbhəçi və ermənipərəst olmalıdır. Əgər kim bunlar kimi düşünmürsə, deməli, düşməndir. Amma sonda oğlanın bu AXCP funksionerinə dediyi söz yerinə düşür: “Adam cəbhəçi yox, kişi olar...”.

İnsanda ən dəyərli şey həya hissidir. Kişi bu hissi itirirsə, dəhşətli olur. Hər dəfə Razi Nurullayev çıxış eləyəndə, onun yerinə ölüb-dirilirəm, xəcalət çəkirəm. Bu boyda riyakarlığı qəbul eləmək olmur! Əli Kərimli ilə dava-qırğınların cəhənnəmə... ancaq bütün xalqın adından danışıb, rəhbərlik etdiyin alayarımçıq partiyanı “ana müxalifət”, özünün də müxalifətin “lider”i kimi təqdim etmək həyasızlığın hansı həddidir? Ağstafa rayonuna gedib ki, partiyadaşları ilə görüşsün, görüşüb də... Ancaq götürüb sosial şəbəkələrdə yazır ki, guya hüquq-mühafizə orqanları buna mane olublar. Ayıbdır! Heç olmasa, sən danışma, 2 mühafizəçi, 2 katibə, 4-5 quldurbaşı saxlayırsan, kimsə sənə nəsə deyirmi? Özündən “lider” qayırma, nə də belə təqdim eləmə. Ə.Kərimli ilə eyni ağıldasan, vallah. Facebookda 50-60 nəfər statuslarınıza “like” verən kimi özünüzü göyün üzündə hiss edirsiniz. Gözün aydın, saqqal saxlamaq sənə yaman düşdü. Sən oldun “Polat Alemdar”, Ə.Kərimli də profil şəklinə əsgərlik fotosunu qoydu. Guya əsgərlikdə olduğunu sübut eləmək istəyir. Sizin ciddiliyinizə asqırım... Bu da cəhənnəmə... hər şeydən əlləri üzülüb, indi də düşüblər islam dininin üstünə. Özlərini fərqli göstərmək istəyirlər. Bütün cəbhəçiləri də öyrədiblər ki, çalışın ateist kimi rəftar edin ki, sosial şəbəkələrdə özünüzə xeyli izləyici yığa biləsiniz. Dövlətə, millətə və Allaha düşmənçilik etməklə bir “zad” olacaqlarını zənn edirlər. Varsa, elə bir nümunə o zaman işinizdə olun.

# Azərbaycanda insan hüquqlarının qorunması prezidentin siyasi iradəsinin təcəssümüdür

***Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.***

İnsanların ictimai-siyasi və özünüdərkinin yetkinləşməsi sayəsində cəmiyyətdəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin tənzimlənməsində vətəndaşların müxtəlif təbəqələrini və kateqoriyalarını təmsil edən ictimai qurumların fəal rol oynaması dövlətin və insanlar toplumunun daha yüksək inkişaf səviyyəsini təşkil edən vətəndaş cəmiyyətini səciyyələndirən əsas amillərdəndir. Cəmiyyətin problemlərinin həlli sahəsində ictimai qurumların tədricən daha çox funksiyanı mənimsəməsi ilə dövlət orqanlarının fəaliyyətində daha çox siyasətin müəyyənləşdirilməsi və nəzarət funksiyaları üstün yer tutur.

Ulu Öndər Heydər Əliyev hüquqi dövlətin aşağıdakı əsas prinsiplərinin gerçəkləşməsini təmin etdi:

1. Qanunun aliliyi prinsipi.
2. Vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsi prinsipi.
3. Dövlətin və şəxsiyyətin qarşılıqlı cavabdehliyi və məsuliyyəti prinsipi.
4. Hakimiyyətin bölünməsi prinsipi.
5. Qanunların yerinə yetirilməsinə konstitusiya, prezident, məhkəmə, prokuror, arbitraj nəzarəti və s.

Ulu Öndər Heydər Əliyev demokratiyanın aşağıdakı prinsiplər üzərində qurula biləcəyini xüsusi əzmlə önə çəkirdi:

"1. Demokratiya qanunun aliliyinə əsaslanmalıdır.
2. Demokratiyanı dərk olunmuş zərurət kimi qəbul etmək lazımdır.
3. Demokratiya xalq hakimiyyəti təsisatlarının yaradılmasını və onlara hörmətlə yanaşılması əsasında gerçəkləşə bilər.
4. Demokratiyaya mürəkkəb ziddiyyətli proses kimi baxılmalıdır.
5. Demokratiya xalqın mənafeyi naminə həyata keçirilməlidir."

Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinin ali məqsədi kimi insanların və vətəndaşların hüquqlarının qorunmasını göstərirdi: "Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir.

Azərbaycan dövləti, siyasi-hüquqi potensialından tam istifadə etməklə, bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır".

"Yeni konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi-demokratik dövlət yaratmaq, vətəndaşların və insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Hələ vaxtilə Ulu Öndər Heydər Əliyevin vətəndaş cəmiyyəti, vətəndaşların və insanların hüquqlarının qorunması uğrunda etdiyi çağırışlar və apardığı siyasət Azərbaycanda müasir vətəndaş cəmiyyətinin formalaşmasını sürətləndirdi. Sovet totalitarizmindən çıxmış Azərbaycan vətəndaşların və insanların hüquqlarının qorunmasını təmin etməyə başladı. SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması stabil şəkil aldı.

Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması prosesində Ulu Öndər Heydər Əliyevin nəzəri və praktiki siyasi fəaliyyəti olduqca böyükdür. Əsasən, Azərbaycanın müstəqillik əldə etməsindən sonra formalaşan vətəndaşların və insanların hüquqlarının qorunması azərbaycançılıq kontekstində özünün fərqli xüsusiyyətləri ilə seçilir. Azərbaycanın vətəndaşların və insanların hüquqlarının qorunması özünün dövlətçiliyə möhkəm əsaslanması ilə fərqlənir. Azərbaycan cəmiyyətində vətəndaşların və insanların hüquqlarının qorunmasının keyfiyyətcə yeni cəhətini müşahidə etmək olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində prezident seçkilərini vətəndaşların və insanların hüquqlarının qorunması kimi xüsusi qeyd etmişdir. Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması, həm də cəmiyyətin siyasi cəhətdən yeniləşməsi iqtisadi islahatların həyata keçirilməsində və ölkənin müasirlik yolunda böyük uğurlar əldə etməsində mühüm nailiyyətdir.

Azərbaycanda prezident seçkiləri vətəndaşların və insanların hüquqlarının qorunması nəticəsi olaraq xüsusi əhəmiyyət kəsb etdi. Azərbaycan seçicisinin öz namizədini seçməkdə yüksək aktivlik göstərməsi seçkilərin insidentsiz başa çatması, hətta müxalifət elektoratının müəyyən qisminin seçki zamanı hakim partiyanın namizədi lehinə səs verməsi, Azərbaycanın vətəndaşların və insanların hüquqlarının qorunması tarixinin yeni səhifəsi kimi yadda qaldı. Nəticə etibarilə Azərbaycannın vətəndaşların və insanların hüquqlarının qorunması səviyyəsinin göstəriciləri artıq müəyyən dəyərlərə ehtiramı ilə seçilir. Bu dəyərlərdən ən mühümü də Heydər Əliyev fenomenidir.

Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması həm ölkəmiz, eləcə də, region üçün böyük müsbət əhəmiyyətli proseslərin başlanğıcıdır. Azərbaycanın dövlət rəmzlərinin qorunmasının konstitusiyaya edilən əlavə və dəyişikliklərlə referendum yolu ilə qəbul olunması da ölkəmizdə vətəndaşların və insanların hüquqlarının qorunması sahəsində yeni mərhələnin göstəricisidir.

Prezident və məmur münasibətlərində dövlət başçısı İlham Əliyevin yeni davranış normalarının formalaşmasına önəm verməsi ölkədə vətəndaşların və insanların demokratik hüquqlarının qorunmasının inkişafına şərait yaradır. Aparılan tədqiqatlar sübut edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin müasir Azərbaycanın vətəndaşlarınən hüquqlarının qorunmasının geniş vüsət almasında böyük rolu vardır. Azərbaycanda "Konstitusiyaya əlavə və dəyişikliklər haqqında" qanun layihəsi müzakirə edildi. Bu referendumda Azərbaycanın dövlət rəmzlərinin qorunmasının konstitusiyaya edilən əlavə və dəyişikliklərlə qəbul olunması da ölkəmizdə vətəndaşların hüquqlarının qorunması sahəsində inkişafında yeni mərhələnin göstəricisidir.

Ulu Öndər Heydər Əliyevin layiqli varisi, ölkə Prezidenti İlham Əliyev insan haqlarının həyata keçirilməsi sahəsində mühüm işlər görür. Bu barədə ölkə Prezidenti İlham Əliyev demişdir: "Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. Biz hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o, adi vətəndaş olsun, nazir olsun, yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Gələcəkdə də əgər kimsə Azərbaycanda qanunazidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır".

"Mənim aləmimdə, sivil və hüquqi dövlət o dövlətdir ki, orada qanunun aliliyi var, cəmiyyətdə bütün ictimai-siyasi təsisatlar işləyir, cəmiyyət demokratik prinsiplər əsasında qurulur, söz, vicdan azadlığı var, dinindən, milliyyətindən asılı olmayaraq insanlar eyni hüquqlara malikdirlər, azad yaşayırlar. Mənim aləmimdə, bunlar sivil və hüquqi dövləti müəyyən edən əsas amillərdir. Hesab edirəm ki, indi Azərbaycanda belə bir dövlətin qurulması istiqamətində çox işlər görülür və bundan sonra da çox işlər görüləcək".

Müsahibələrinin birində İlham Əliyev demişdir: "Əvvəla, Azərbaycan Prezident idarəçiliyi olan respublikadır və hətta parlamentdə qüvvələr nisbətinin dəyişməsi də siyasətdə dəyişiklik demək deyildir. İkincisi, xalq hökumətə, onun həyata keçirdiyi islahatlara etimad göstərir. Ümid edirəm ki, yeni formalaşmış parlament Azərbaycanda qanunvericilik funksiyasını uğurla davam etdirəcək, yeni mütərəqqi qanunlar qəbul olunacaqdır. Azərbaycanda qanun hamı üçün eynidir. Bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınmışdır və gələcəkdə də alınacaqdır".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 4 iyul

## Arıqlamaq üçün dərmanlar hansı fəsadlar törədir?



Bu gün bir çox apteklər, hətta mağazalar arıqlamaq üçün müxtəlif növ dərmanlar təklif edirlər. Bu dərmanların çoxu geniş reklam olunur. Arıqlamaq üçün müxtəlif pəhriz və proqramları sınaqdan keçirən, istədikləri nəticəni əldə edə bilməyən qadınlar dərman preparatları qəbul etməyə başlayırlar. İstehsalçıların və reklamların təklif etdikləri bu dərmanlar doğurdan da insan orqanizmi üçün xeyirlidirmi?. Bir çox adamlar səmimi olaraq hesab edirlər ki, arıqlamaq üçün dərmanlardan istifadə artıq çəkidən qurtarmaq üçün ən asan üsuldur. Bu möcüzə-dərmanların istifadəsindən sonra bir çox insanların ümidləri boşa çıxır.

**Bu haqda nəyi bilmək vacibdir?**

Belə dərmanları hamı reseptsiz və ya reseptlə əldə edə bilər. Reseptsiz satılan dərmanları müxtəlif apteklərdən əldə etmək olar. lakin onları asanlıqla əldə etmək dərmanların sağlamlıq üçün xeyirli olmasından xəbər vermir. Dərmanların qəbulundan sonra bir çox əks göstərici problemlər - mədə-bağırsaq xəstəlikləri, dəri xəstəlikləri, yuxu pozğunluqları yaranır. Bir çox hallarda bu dərmanlar həyat üçün çox təhlükəlidir. Əgər siz eyni vaxtda ürək-damar xəstəliklərindən, yüksək təzyiqdən dərmanlar qəbul edirsinizsə, onda arıqlamaq üçün dərman qəbul etdikdə xüsusən ehtiyatlı olmalısınız.

## Telefonla çox danışmaq stressə və baş gicəllənməsinə səbəb olur



Xalq arasında baş gicəllənməsi olaraq bilinən vertigonun, hər yaş qrupunda görülə biləcəyi deyilir. Mövsümi xüsusiyyətlər baxımından bu narahatlılıq yatarkən sağa sola dönüldüyündə, hərəkət edildiyində və ya başın oynadılması vəziyyətində ürək bulanması yarada bilər. Beyindəki narahatlıqdan yaranan vertigo ilə eşitmə itkisinin və cüt görmənin olacağı bildirilir. Mobil telefonların bəzilərində yayılan radiasiya, B12 vitamini əskikliyi, fol turşusu çatışmazlığı yaradır və anemiya olması insanda baş gicəllənməsinə səbəb olur. Xəstəliyin inkişaf etməməsi üçün telefonlarla çox danışmamaq, lazımsız və lüzumsuz telefon görüşmələrindən imtina etmək lazımdır. Xəstəliyin xronikləşməsi isə "Vertigo" hücumlarını sıxlaşdırır, həyat keyfiyyətini aşağı salır. Gündəlik həyatdakı sıx stress, texnoloji inkişaf, səs-küy və hava çirkliliyi uşaqlarda da baş gicəllənməsinə gətirib çıxarır.

## Səhərlər siqaret çəkmək xərçəng riskini artırır?



Səhər tezdən siqaret çəkməyə can atan şəxslərdə bədxassəli xərçəngin əmələ gəlmə şansı digər şəxslərə nisbətən daha böyükdür. Amerika Onkologiya Xəsətlikləri ilə Mübarizə Cəmiyyətinin "Kənser" jurnalında dərc olunmuş araşdırmanın nəticələri belə deməyə əsas verir.

ABŞ-ın Pensilvaniya Tibb Kollecinin mütəxəssislərinin fikrincə, siqaretin çəkilmə vaxtı xərçəngin əmələ gəlməsində daha böyük rol oynayır. 7.500 nəfər arasında keçirilmiş araşdırma zamanı onların 4.800 nəfərində xərçəng xəstəliyi qeydə alınmışdır. Xəstəliyə tutulma şansı oyandıqdan 30 dəqiqə ərzində, boyun və çiyin nahiyələrində müşahidə edilmişdir. Pensilvaniya Tibb Kollecinin mütəxəsisləri bunun səbəbi kimi yuxudan oyanmanın ilk dəqiqələrində orqanizmin nikotini daha çox həzm etməsini göstərirlər. Bundan başqa, genetik və şəxsi amillərin də rolu istisna edilmir.

## Almaniya millisi Konfederasiyalar Kubokunun qalibi oldu!




Konfederasiyalar Kubokuna yekun vurulub. Konfederasiyalar Kubokunun qalibinin adına aydınlıq gələn oyunda Almaniya ilə Çili qarşılaşıb. Turnirin əsas favoritlərindən biri olan "bundestim"in bu matçda da minimalhesablı qələbə qazanaraq çempionluğunu elan edib. Rusiyaya əsasən ehtiyat heyətlə yollanan Lövün komandası ilk hissədə vurduğu tək qola sevinib. Stindl almanları çempion edən qələbənin memarı olub. Qeyd edək ki, bu, Almaniya millisinin ilk Konfederasiyalar Kuboku çempionluğudur.



## Samboçularımız Qazaxıstanda güclərini sınayacaqlar

İyulun 5-9-da Qazaxıstanın paytaxtı Astanada ölkə prezidenti Nursultan Nazarbayevin mükafatı uğrunda sambo üzrə beynəlxalq turnir keçiriləcək. Azərbaycan Sambo Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yarışda millimizin heyətində Yusif Kərimov (52 kq), Rəşad Dünyamalıyev (57 kq), Emin Qulamov (68 kq), Samir Kərimov (74 kq) və Ceyhun Hüseynov (82 kq) birincilik uğrunda mübarizə aparacaqlar. Yığmamız baş məşqçi Yaqub Abdullayevin rəhbərliyi altında yarışacaq. Turnirdə ölkəmizi beynəlxalq dərəcəli hakim Cabir İsmayılov təmsil edəcək.

## Azərbaycan karateçisi Qazaxıstanda dünya çempionu olub



Qazaxıstanın paytaxtı Astanada karatenin kyokşin növü üzrə sayca altıncı dünya çempionatı keçirilib. SİA xəbər verir ki, ölkəmiz mundialda dörd idmançı ilə təmsil olunub. Turnirdə 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Səlahət Həsənov dörd rəqibini məğlub edərək finala yüksəlib. Qızıl medal uğrunda görüşdə karateçimiz rusiyalı Maksim Smolyakova qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Portuqaliya Konfederasiyalar Kubokunda 3-cü oldu

Rusiyanın ev sahibliyi etdiyi FIFA Konfederasiyalar Kuboku turnirində 3-cü yer uğrunda keçirilən görüşdə Portuqaliya yığması Meksika komandasına qalib gəlib. Hesab 2-1 Portuqaliya futbolçularının xeyrinə başa çatıb. Görüşün əsas hissəsi 1-1 hesabı ilə bitsə də əlavə vaxtda Adrien Silva penalti zərbəsini uğurla icra edərək qələbə qolunu vurub. Qollardan birinin müəllifi 90-cı dəqiqədə portuqaliyalı Pepe olub, digərini isə portuqaliyalı müdafiəçi Luiş Netu 54-cü dəqiqədə öz komandasının qapısından keçirib.

Görüşdə portuqaliyalı oyunçu Nelson Semedu və meksikalı Raul Ximenes ikinci sarı vərəqə alaraq meydandan çıxarılıblar. Həmçinin Meksika yığmasının baş məşqçisi Xuan Karlos Osorio da hakimlə mübahisəyə görə meydandan uzaqlaşdırılıb.

## "Qəbələ" malili futbolçunu transfer edib



Yeni mövsümün hazırlığını davam etdirən "Qəbələ" daha bir futbolçunun keçidini gerçəkləşdirib. İlqar Qurbanov, Aqil Məmmədov, Elvin Məmmədov, ispaniyalı Xavyer Ernandes Qonzales, fransalı Stiven Jozef-Monroz, hollandiyalı Dion Malone və şotlandiyalı Endi Hallideylə anlaşan "qırmızı-qaralar" hücum xəttini legionerlə gücləndirib. Malili hücumçu Famoussa Kone icarə əsasında 1 il "Qəbələ"nin formasını geyinəcək.

Forvard karyerasına Fransada başlayıb. Kone 2012-2016-cı illərdə "Bastiya" klubunun əsas və "B" komandalarında çıxış edib. 2015-2016-cı illərdə icarə əsasında Türkiyənin "Samsunspor" klubunun uğurları üçün çalışan hücumçu ötən il "Göztəpə" ilə anlaşıb. 2016/2017-ci il mövsümünün ilk yarısını İzmir klubunda keçirən malili qışda "Samsunspor"a icarəyə verilib. 2013-cü ildə Malinin U-20 milli komandasına cəlb olunan Kone Afrika çempionatında iştirak edib. Onun çıxış etdiyi yığma yarışın yarımfinalına qədər irəliləyib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500